


# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

















zəhmətkeş və qayğıkeş olduqlarını bildirir. Akşin müəllimlərini çox sevdiyini, onların dərslərindəki çətinliklərində hər zaman şagirdlərə köməklik göstərdiklərini bildirir. Dərslərindən əla qiymətlər alan Akşin hər ay təşkil olunmuş sınaq imtahanlarında iştirak etmiş, 3 dəfə "Təltifnamə" ilə mükafatlandırılmış, 2 dəfə Bərdə rayon üzrə bütün fənlərdən birinci yerə çıxmışdır. Dərsləri ilə yanaşı Akşin fərdi şəkildə idmanın karate növü ilə də məşğul olur. Akşinin ən böyük arzusu gələcəkdə orta məktəbi uğurla başa vurub Polis Akademiyasına daxil olub, bu sahə üzrə ixtisaslaşaraq vətənə, xalqa fayda verən polis olmaqdır. Ailəsi də Akşininin arzularını dəstəkləyir, gələcəkdə uğurlu həyata sahib olması üçün əllərindən gələni əsirgəmirlər.

Akşinin ailəsi 4 nəfərdən ibarətdir. Atası İbrahimov Arzu Əşrəf oğlu 1984-cü ildə doğulub, qaz idarəsində qaynaqçı işləyir. Anası İbrahimova Xəyalə 1985-ci ildə doğulub, musiqi təhsili alıb, hazırda evdar xanımdır. Bacısı Fidan 2012-ci ildə doğulub hazırda 1-ci sinifdə təhsil alır. O, da qardaşı kimi istedadlı və nümunəvi şagirddir.

Biz də redaksiyamız adından Akşini təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, daim qazandığı müvəffəqiyyətləri ilə ailəsinin, sevdiklərinin başını uca tutsun. Vətənə, millətə xeyirli, faydalı övlad olsun.







# İbrahimli Akşin







**“Elm necə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur”**

**(Puankare)**

Cəmiyyətdə təhsilin yeri, dövlət üçün təhsilin əhəmiyyəti, fərdin potensialının açılmasında təhsilin rolu da kitabda diqqət mərkəzinə çəkilmişdir. Bəzən “təhsilimiz gələcəyimizdir”- deyirik. Pis təhsildən gələcəyimiz xeyir görməyəcək, əksinə, əziyyət çəkəcəkdir. Bu gün üçün “keyfiyyətli təhsil gələcəyimizdir” müddəası daha düzdür. Yaxşı təhsil sistemini yaratmaq imkanımız hələ vardır. Şansı əldən verməməliyik.

Jurnalımızın bu sayında təhsil aldığı orta məktəbin nümunəvi şagirdlərindən olan İbrahimli Akşin Arzu oğlundan da bəhs edəcəyik. İbrahimli Akşin Arzu oğlu 2011-ci ildə yanvar ayının 11 də Mingəçevir şəhərində dünyaya göz açmışdır. Akşin 2017-ci ildə Bərdə şəhər Elgiz Kərimov adına 4 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda Akşin həmin sözügedən məktəbin 2b sinifində təhsilini davam etdirir. Məktəbə başladığı qısa vaxt olmasına baxmayaraq Akşin bu zaman ərzində müəllimlərinin sevimlisinə çevrilmişdir. Müəllimlərinin dediyinə görə Akşin öyrənməyə, oxumağa çox meyillidir. O, hər zaman istəyir ki, dərslərdən birinci olsun. Bütün fənləri çox sevdiyini bildirən Akşin bütün müəllimləri çox sevdiyini və onlara hörmət etdiyini bildirir. O, müəllimlərindən Tərlan müəllimin, Səbinə müəllimin, Tünzalə müəllimin və Esmira müəllimin adlarını çəkmiş onların çox







# Yaqublu Yaqub










**”Bütün ölkələr üçün vahid universitet modeli ola bilməz. Hər bir universitet öz ölkəsinin ictimai həyatının üzvi hissəsi kimi formalaşmalıdır”**

**(Rabindranat Taqor)**

Elm işıqlandırıcı qüvvəyə malikdir. Elm, cahanı insan gözləri qarşısında işıqlandıraraq agah edir. Onu zülmətdən nura doğru yönəldir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir.

Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür.Təhsilin inkişafı hər bir ölkənin irəliləməsinin, inkişafının mühüm tərkib hissəsidir.-Təhsil və bilik insan həyatında da aparıcı rol oynayan ən vacib amillərdəndir. İnsanlar daima öz arzularını reallaşdırmaq naminə həyatla mübarizə aparırlar. Öz arzularına çatmaq üçün bu yolda addımlayan dostlarımızdan biri də məktəbli Yaqublu Yaqubdur.

Yaqublu Yaqub Eldəniz oğlu 2011 ci il aprelin 28 də Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Gəlişi ilə ailəsinə sevinc gətirən Yaqub, 2017-ci ildə Bərdə şəhər Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü liseyin birinci sinfinə qədəm qoymuşdur və hal-hazırda həmin liseyin 2-ci sinif şagirdidir. Bütün dərslərə həvəslə yanaşan Yaqubun ən sevdiyi fənlər riyaziyyat və həyat bilgisi fənni, ən sevdiyi müəllimi isə Heyran müəllimdir. Dərslərini böyük həvəslə yerinə yetirən və sinifdə aktivliyi ilə seçilən Yaqub sınaq imtahanlarında iştirak etmiş və hər birindən ”Təltifnamə” qazanmışdır.Yaqub boş zamanlarında test kitabları edir və dostları ilə futbol oynayır. Onun ən böyük arzusu gələcəyin ali tibb təhsili alıb savadlı həkimi olmaqdır və şəfalı əlləri ilə xalqına, millətinə xidmət etməkdir.

Həkimlik sənəti insan həyatında önəmli olan ən vacib sənətlərdəndir. Qədim və humanist peşə olan həkimlik insanların səhhətinin qorunmasına, xəstəliklərin qarşısının alınmasına yönəlib. İnsanların ayrılmaz dostu olan bu peşə sahibləri daim bəşərin keşiyində dayanmışlar. Həkim peşəsi olduqca məsuliyyətli və çətin peşədir. Ümid edirik ki, Yaqub öz arzusuna çatar və öz sənətini layiqincə yerinə yetirər.

Yaqubun ailəsi 5 nəfərdən ibarətdir.

Atası Hacıyev Eldəniz Yaqub oğlu yanvarın 14-ü 1976-cı ildə anadan olmuşdur və Daşınmaz əmlakın Dövlət Reyestri xidmətinin 5 saylı Xaçmaz ərazi idarəsinin rəis vəzifəsində işləyir. Bir ata kimi isə daima övladlarına gözəl ata və ailəsinə böyük dəstəkçidir.

Anası Abdullayeva Ülkər Vaqif qızı oktyabrın 23 -ü 1984-cü ildə anadan olmuşdur və savadlı müəllimdir. Ülkər xanım bir ana kimi isə övladlarının tərbiyəsi ilə gözəl şəkildə məşğul olur, övladlarına gözəl ana, yoldaşına isə gözəl həyat yoldaşıdır.

Yaqubun Əsmər və Mədinə adında iki bacısı var. Yaqublu Əsmər aprelin 3-ü 2009 cu ildə anadan olmuşdur. Bərdə rayon 2 nömrəli Beynəlmiləl məktəbin rus bölməsinin 4 cü- sinif şagirdidir. Yaqublu Mədinə isə sentyabrın 30-u 2012- ci ildə anadan olmuşdur. Zərifə Əliyeva adına riyaziyyat təmayüllü məktəbin birinci sinif şagirdidir.

Biz də, öz jurnalımız adından Yaquba seçdiyi həyat yolunda bol uğur arzu edirik. Qoy ömür yolu açıq, həyatı uğurlarla zəngin olsun!

## "Qayğıkeş ana, fədakar müəllim"

# Kərimova Tərlan






**"Müəllim bir memar, ya mühəndisdir ki, insanların düşüncələrini, ağlını düzəldir"**

***(Atalar sözü)***

Müəllim elə bir nurdur ki, onun işığında hamımız görür, aydınlanır, dərk edirik. Məhz bundan dolayı müəllim günəşə bənzədilir. Bildiyimiz kimi günəş işıq, enerji və hər bir canlı həyatın ilk mənbəyidir. Müəllim durduğu ictimai pillədə yerindən, yaşadığı coğrafi məkandan asılı olmayaraq, həmişə, hər yerdə, hər vaxt parlaqlığını, işığını, enerjisini qoruyub saxlayır, onu heç vaxt azaltmır, əksinə gündən günə daha da artırır. Hətta fani həyatdan köçüb əbədi aləmə qovuşanda da. Lakin günəşin enerjisi, işığı durduğu yerdən asılı olaraq zenit və qürubunda azalıb artır. Onun haqqında istər tarixi, istərsə ədəbi yaradıcılıq dünyasının ən dahi, ən mütəfəkkir və güclü şəxsiyyətləri şer qoşub, fikir əxz edib, ədəbi-bədii əsərlər yaradıblar, amma yenə onun əzmi, peşəsi qarşısında gücsüz, acizdirlər. Müəllim ən zalım cəlladın, düşmənin belə sığındığı, onun bilik və zəhmindən çəkindiyi, sənətinin müqəddəsliyi qarşısında başı əyilən peşə sahibləridir. Müəllim adı o qədər şərəfli olub ki, hətta hər zaman onlar toxunulmaz, qüsursuz, güclü varlıqlar kimi xarakterizə edilib. Elə Tərlan Kərimova adlı fədakar müəlimimiz də belə şərəfli peşənin təmsilçilərindəndir.

**Müəllim elə bir nurdur cahanda,**
**Günəşdən parlaqdır könül dünyası.**
**Müəllim olubdur hər bir zamanda**
**Bəşərin mürşidi, piri, mövlası.**

Jurnalımızın bu sayındakı növbəti məqaləmiz Tərlan müəllimin həyatının bir neçə mərhələsini qısa da olsa özündə əks etdirir: uşaqlıq çağları,tələbəlik dövrü, ailə həyatı və ən əsası müəllimlik fəaliyyəti haqqında məlumat verməyə çalışacağıq. Çalışacağıq ki, onun tərcümeyi halına işıq salmaqla yanaşı uğur və nailiyyətlərini, fədakarlığını da qələmə alaq.

Kərimova Tərlan İsi qızı 1961-ci il iyul ayının 1-də Bərdə rayon Şahvəlilər kəndində zəhmətkeş bir ailədə anadan olub. Atası sürücü, anası evdar qadın olmaqla kənd yerində birgə zəhmət çəkərək dünyaya gətirdikləri 8 övladın düzgün təlim-tərbiyəsi, təhsili ilə ciddi məşğul olublar. Onların hər birinə təhsil verməyə çalışan valideynlər buna nail də oldular. O ailənin yetirməsi olan Tərlan müəllim də 1968-78 ci illərdə Şahvəlilər kənd tam orta məktəbində orta təhsilini alaraq uğurlu məzunlardan biri olmuşdur. Onun o vaxtlar ən böyük arzusu hüquqşünas olmaq olub, lakin verdiyi imtahan uğursuz olduqdan sonra Tərlan müəllim ailəsinin təkidi ilə bu fikrindən yayınmaq məcburiyyətində qalıb. Beləliklə O, 1982-ci ildə Məhsəti Gəncəvi adına Gəncə Pedaqoji Texnikomuna daxil olaraq 1985-ci il iyul ayının 1-də bu məktəbi bitirmişdir. O, texnikomu bitirdiyi ilin son ayında Hüseynov Maşallah böylə










ailə həyatı quraraq səmimi və xoşbəxt bir ailənin təməl daşını atmışdır. Ailə həyatının 1 ilindən sonra , 1986-cı il sentyabr ayından etibarən Bərdə rayon Elgiz Kərimov adına 4 saylı tam orta məktəbdə işə düzələrək müəllimlik fəaliyyətinə start vermişdir. İndiyə qədər 33 illik müəllimlik fəaliyyəti dönəmində sinif müəllimi olaraq da çalışmış, fərdi dərslər də demişdir. Bu müddət ərzində 10 -dan çox sinif buraxılışı olub ki, onların da içərisində çoxlu sayda uğurlu məzunlar və yetirmələr onun zəhmətinin bəhsəri kimi müəllimin adını ucaldıb, fəaliyyətinə böyük tövfə kimi yazılıblar. Onun bir müəllim kimi fədakarlığı da olub ki, bu istənilən sənətini sevən, millətinin övladına şərəf və ləyaqəti ilə xidmət edən peşə sahiblərinə bir ibrətlik nümunədir. Bu hadisə dəhşətli Qarabağ müharibəsi ilə bağlıdır. 1992-1993- cü illər torpaqlarımız düşmən tərəfindən işğal olunan zaman bir çox insan məcburi şəkildə yaxın ərazilərdəki məktəblərdə məskunlaşmışdılar, həmçinin Elgiz Kərimov adına 4 saylı məktəbdə də. Bütün sinif otaqları dolduğu üçün uşaqlar məktəbə gedə bilmir, təhsildən geri qalır, təhsil üzünə həsrət idilər. Diektorun da göstərişi ilə Tərlan müəllim şagirdlərinə qarşı ən böyük fədakarlığını eləməkdən çəkinmədi. O, öz şagirdlərini evinə gətirərək, elə evindəcə sinif düzəldib, nə az, nə çox düz 6 ay məktəbdə yer düzələnə qədər orada onlara dərs keçmişdir. Buna heç də təəccüblənmək lazım deyil, çünki əsl şərəfli, vicdanlı müəllim olmaq məhz bunu tələb edir. Şagirdinə qarşı ana qayğısı, müəllimlik fədakarlığı. Onun zamandan asılı olmayaraq istəyi, amalı da budur. Öz şagirdlərinin mənfəətini öz mənfəətindən üstün tutub, gələcəyimiz üçün tam formalaşmış şəxsiyyətlər yetişdirmək, təhsilli gənclik, cəmiyyət formalaşdırmaqdır. Hazırda Tərlan müəllim Bərdə şəhər Elgün Kərimov adına 4 saylı məktəbdə 2-ci sinifdə pedaqoji fəaliyyətlə məşğul olur. O, hər bir şagirdinə səbrlə, təmkinlə yanaşır, onların təhsil həyatında uğur qazanmaları üçün əlindən gələni əsirgəmir. Ən böyük istəyi də ancaq peşəsinin bəhrəsini görmək, yəni yetişdirdiyi tələbələrin sayını artırmaq və uğurlu məzunlarının sayının çox olmasını diləməkdir.

Tərlan müəllim heç vaxt savad baxımından olduğu yerdə qalmaq istəməmiş, özünü inkişaf etdirmək üçün daim seminarlarda, artırma kurslarında iştirak etmişdir. O, 2005-ci il aprel ayının 1-i tarixindən 2005-ci il aprel ayının 28-i tarixinədək AMİ-nin Mingəçevir filialında "İbtidai Sinif İxtisas Artırma" kursunda iştirak etmişdir. İki dəfə ”Yeni İbtidai Təhsil Kurrikulmu" üzrə təlim kursunda iştirak etmişdir. 2015-ci ildə sentyabr ayının 14-də "Mədəd Azərbaycan" MMC-də keçirilən Yeni İbtidai Təhsil Kurikulumu üzrə təlim kursunda iştirak edərək ”Sertifikat", ”Fəxri Fərman"a layiq görülmüşdür.

Tərlan müəllim həyat yoldaşı Maşallah Hüseynovla 1985-ci ildə ailə həyatı qurmuşdur. O, 1959-cu il fevral ayının 8-də Bərdə şəhərində doğulub. Onların iki övladı var. Hüseynova Nurlana Maşallah qızı 1987-ci il mart ayının 3-də Bərdə şəhərində anadan olmuşdur. Nurlana 2004-cü ildə Ağdam Dövlət Sosial İqtisadi Kollecinə daxil olub, 2008-ci ildə bu kolleci uğurla bitirib. Hazırda Nurlana ailəlidir. Hüseynov Emin Maşallah oğlu 1992-ci il iyul ayının 3-də Bərdə şəhərində anadan olmuşdur. 2010-cu ildə Emin Bərdə şəhər Elgiz Kərimov adına 4 saylı tam orta məktəbdən məzun olub, 2010-2012-ci illərdə Naxçıvanda N saylı hərbi hissədə Hərbi Xidmətdə olmuşdur. Hazırda Emin ticarətlə məşğuldur. Ana öz övladları ilə qürur duyur və hər zaman onlara xoşbəxt, parlaq bir həyat arzulayır.

Biz də öz "Çağdaş Təhsil " jurnal redaksiyamız adından Tərlan müəllimi təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, daim yetişdirdiyi şagirdlərinin uğurları ilə fəxr etsin, onların xoş sədalarını eşitsin, xoş günlərini görsün, xeyirli əməllərinin şahidi olsun. Elə bir nəsil yetişdisin ki, daim izləri onun müəllimlik fəaliyyətində qızıl hərflərlə yazılsın.





# Şəfiyeva Bahar





**"Təbiət özü ahəng və gözəllik prinsipləri ilə qurulubsa, onu öyrənən elm də bu prinsiplərə sadiq qalmalıdır"**

***(Əbu Turxan)***

Elm insan şüurunun formalaşmasında, onun iti ağıl və dərin düşüncə qabiliyyətinin püxtələşməsində, düşünərək uğur qazanmasında müstəsna rol oyanır. Müasir həyatı və müasir insan beynini elmsiz təsəvvür etmək olmaz. Çünki 21 -ci əsr elm, texnika əsridir.Elm insan zəkasının ən yüksək məhsulu olub,onun qüvvə və qüdrətinin təcəssümüdür ki, yaşadığımız əsrdə biz bunun canlı şahidiyik.

Jurnalımızın bu sayında istedadlı və çalışqan şagirdi olan Şəfiyeva Bahar Vüqar qızı haqqında məlumatı oxucularımıza təqdim edirik. Şəfiyeva Bahar Vüqar qızı 2011-ci ildə mart ayının 21-də Bakı şəhərində anadan olmuşdur. O,2017-ci ildə Bərdə şəhər Akademik Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü liseydə təhsil almağa başlamışdır. Hazırda Bahar sözügedən liseyin 2b sinifində təhsilini uğurlu şəkildə davam etdirir. Məktəbin nümunəvi və istedadlı şagirdi olan Bahar qısa vaxt ərzində müəllimlərinin sevgisini və hörmətini qazanmışdır. Dərslərində hər zaman birinciliyini qoruyub saxlayan Bahar dəqiq emləri xüsusi həvəslə oxuyur. Onun ən çox sevdiyi fənn riyaziyyatdır. Şübhəsizdir ki, şagirdlərin dərslərini sevərək,maraqla oxumasında müəllimlərin rolu əvəzsizdir. Məhz müəllimə olan sevgisi şagirdin dərslərinə hər zaman hazır olmasını təmin edə bilər.Məktəbin qabaqcıl və nümunəvi şagirdlərindən olan Bahar Bərdə şəhər üzrə keçirilmiş sınaq imtahanlarında yüksək bal toplayaraq fərqləndiyinə görə "Təltifnamə" ilə mükafatlandırılmışdır. Məsuliyyətli balamız Baharın ən böyük arzusu dərslərini müvəffəqiyyətlə oxuyub gələcəkdə Tibb Universitetinə daxil olaraq savadlı,peşəkar stomatoloq olmaqdır. O,bilir ki,bu məqsədinə çatmaq üçün daim iradəli olaraq çalışmalıdır. Buna görə o, hətta boş vaxtlarını da kitab oxumaqla keçirir. Öz ana dilini mükəmməl şəkildə öyrənməyə çalışan Bahar rus dilini də öyrənmək üçün kursa gedir.

Evin tək uşağı olan Baharın kiçik və mehriban ailəsi var.Onun ailəsi 3 nəfərdən ibarətdir. Atası Şəfiyev Vüqar Rasim oğlu 38 yaşındadır. O, Bərdə şəhər polis şöbəsində polis olaraq fəaliyyət göstərir. O,peşəsini çox sevir. Anası Şəfiyeva Nigar Şirzad qızı Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərir. O, Baharın təlim-tərbiyəsi ilə məşğul olur.

Biz də öz redaksiya heyətimiz adından Baharı təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki,qazandığı uğurlar daima yoluna işıq salsın. Seçdiyi peşəyə layiq,xalqına faydalı şəxs olsun!





# YUNİSLİ FATİMƏ







**"İnsanın bütün həyatı böyük məqsədlərə yönəlməlidir. Amma hərdən bir nəfəsini dərmək üçün tez bəhrə verən işlərə də vaxt ayırmalıdır"**

***(Əbu Turxan)***

Həyat başlayandan, dünya yarananandan insan övladı dərin bir axtarış, davamlı araşdırma içərisindədir. Kitab bütün dövrlərin ən mükəmməl kəşfidir ki, bu qiymətli xəzinə əsrlərin ən yaxşı sirdaşı, insanın bilik mənbəyi, maariflənmə xəzinəsidir. İnsan gərək bütün ömrü boyu maariflənsin, daima yeni biliklər əldə etsin. Çünki əks təqdirdə insan təfəkkürü korlaşar və öz ciddi əhəmiyyətini itirər. Kitab insan təfəkkürünün yorulmayan qanadları, bilik mənbəyidir. Kitabın cəmiyyəti müsbətə doğru istiqamətləndirən yaradıcı gənclərin formalaşmasında əvəzsiz rolu vardır. Bir insanın nicatı kitablarda və onları oxuyaraq faydalanmaqdadır.

Belə dəyərlərlə böyüyən və elmdən faydalanmağa çalışan qəhrəmanlarımızdan biri də Yunisli Fatimə Elçin qızıdır. Fatimə ağıllı və bacarıqlı bir məktəblidir.

Yunisli Fatimə Elçin qızı 5 may 2011-ci ildə Bərdə şəhərində anadan olub. 2017-ci ildə Z.Əliyev adına texniki fənlər məktəb - liseyində öz təhsil həyatına başlamışdır. Hazırda həmin məktəbin 2b sinif şagirdidir. Dərslərinə məsuliyyətli yanaşmağı və istedadı ilə fərqlənən Fatimə balamız dərslərini əla oxuduğundan sinif əlaçısıdır. Balaca olduğuna baxmayaraq artıq bir çox uğurlar əldə edib, özünü təsdiqləyib. Fatimə iştirak etdiyi sınaq imtahanlarında ən yüksək bal toplayaraq məktəb rəhbərliyi tərəfindən "Tərifnamə"yə layiq görülmüşdür. Xarici dil öyrənməyə marağı olan Fatimənin sevimli dili ingilis dilidir. O, bu dildə mətnlər oxumağı və onları tərcümə etməyi xoşlayır. Fatimə bu fənni ona sevdirən və maraq oyadan Heyran müəllimini çox sevdiyini bildirib. Mehribanlığı və səmimiyyəti ilə özünü hər yerdə sevdirməyi bacaran Fatimə kiçik yaşında böyük düşüncələri ilə yaşıdlarından fərqlənməyi bacarıb. Asudə vaxtlarını dərs oxumaqla, rəsm çəkməklə və müxtəlif alətlərdən maketlər düzəltməklə keçirir. Maraqlı əl işləri var. O, məktəb tədbirlərində də aktiv iştirak edir. Hər kəs kimi Fatimənin də gələcəyi ilə bağlı xəyal və arzuları vardır. O, qeyd edib ki, mütləq bir peşəni bir sahəni seçərkən həmin sahəyə maraq və sevgi olmalıdır öncə insanda. Gələcəyinə böyük ümidlərlə baxan Fatimənin seçdiyi peşə həkimlikdir. Bu məsuliyyətli işi yerinə yetirəcəyinə dair onun heç bir şübhəsi yoxdur, yəni istəkli və israrlıdır. Həkimlik peşəsinə yiyələnib xalqına sidq ürəklə tibbi bilikləri ilə yardım və köməkliyini etmək istəyir. Onun bu arzu və istəklərinə Amin deyən Fatimənin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Yunisov Elçin Raqub oğlu 1985-ci il yanvarın 31-də Bərdə şəhərində anadan olub. Hazırda hakim köməkçisi kimi işləyir. O, bir ata kimi övladının xoşbəxt və sağlam bir taleyinin sahibi olmağını istəyir. Arzulayır ki, qızı tez məktəbi bitirib ali təhsil alsın və uğurları ilə valideynlərinin və müəllimlərinin fəxri olsun.

Anası Yunisova Gülnar Tanrıverdi qızı 1985-ci il oktyabrın 18-də Bərdə şəhərində anadan olub. Ali təhsillidir. Hazırda Bərdə şəhərində musiqi müəllimi işləyərək şagirdləri musiqi biliyi ilə maarifləndirir. Bir ana kimi övladları ilə bağlı istəyi onların sağlam və xeyirli övlad kimi böyüməsi və əməlləri ilə cəmiyyətdə özlərinə layiqli yer tutmasıdır.

Bacısı Yunisli Gülçin Elçin qızı 2008-ci il oktyabrın 17-də Bərdə şəhərində anadan olub. Hazırda 5-ci sinifdə oxuyur. O, daim bacısının dərslərinə yaxından köməklik etdiyini və onu çox sevdiyini bildirib.

Əziz Fatimə balamız, elm öyrənmək yolunda redaksiya kollektivi adından irəlilədiyin bu yolda sənə uğur və nailiyyətlər arzulayırıq. Öyrəndiyin elm, aldığın təhsil səni gələcəkdə uğurlu zirvələrə doğru ucaltsın. Hər zaman sevil, sevin!



BƏRDƏ HAZIRLIQ KURSU

TƏLTİFNAMƏ

Bərdə rayon Zərifə Əliyeva adına texniki təmayüllü məktəb liseyin II Sinif şagirdi

Fatimə Yunisli

27.01.2019-cu keçirilmiş sınaq imtahanında III YER tutduğuna görə təltif edilir.

BƏRDƏ Hazırlıq Kursunun direktoru: Xalid Qədirov

İmza:

# Elçin Səfərov






***”Gənc ikən bilik ağacını əkməsək, qocaldığımız zaman kölgəsinə sığınacaq bir yerimiz olmaz”***
***(Nikolo Sebastyan Şamfor)***

Bilik əsla nə orta, nə də ali təhsil ocaqlarında alacağımız təhsillə kifayətlənməməli, əksinə bir ömür daim kitablardan oxuyub özünü inkişaf etdirməlidir.Çünki həyat getdikcə dəyişir, dünyada elm-texnologiya aləmində böyük inqilabi dəyişikliklər, yenilik və kəşflər baş verir. Ona görə də cahil qalmamaq, daim yeniliklərdən xəbər tutmaq və dünyagörüşü artırmaq üçün beşikdən qəbrevinədək oxumaq prinsipini əsas tutmaq lazımdır. Dünya artıq əməktutumlu, xammaltutumlu, eberjitutumlu deyil, artıq biliktutumludur. Odur ki, istənilən ölkə sahib olduğu təbii sərvətlərinə deyil, savadlı insan kapitalına, ixtissaslı peşəkar kadrlarına önəm verməli və onların sayəsində ölkənin bütün istehsal sferalarını inkişaf etdirilməlidir. Çünki təbii sərvətlər bir gün bitə, tükənə biləcəyi təqdirdə ölkə həmişəlik iqtisadi böhrana, dərin tənəzzülə gedə bilər. Odur ki, şüurlu varlıq olan insan övladına dəyər verilməli, onun öncə təshilinə yatırım yatırılmalı və sonra ondan ölkənin inkişafı üçün yararlanmalıdır. Bunu dərk edib indidən dərslərini yaxşı oxuyub gələcəyin peşəkar kadrlarından biri olmaq istəyən məktəblilərdən biri də Elçin Səfərovdur.

Jurnalımızın bu yazısının qəhrəmanı olan Elçin Səfərov Yasin oğlu 2 avqust 2006-cı ildə Mingəçevir şəhərində doğulmuşdur. O, 2012-ci il sentyabr ayının 15-də Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda Elçin həmin məktəbin 7 b sinifində təhsilini uğurla davam etdirir.Xüsusi istedadı,davranışı,dərslərinə qarşı olan xüsusi maraq və həvəsi onu hər zaman yeni biliklər əldə etməyə vadar edir. Elmdə addımlamağa başladığı ilk gündən daima öz üzərində işləməklə bilik və bacarıqlarını inkişaf etdirib. Bütün dərslərindən əla qiymətlər alan Elçin coğrafiya və riyaziyyat fənlərinə xüsusi maraqla yanaşır. Elçin bütün müəllimlərinə hörmətlə yanaşır,ondan ən çox sevdiyi müəllimlərini soruşarkən bizə Gülər müəllimin adını verdi,onun çox qayğıkeş olduğunu qeyd etdi. Dərslərini yaxşı oxuyan Elçin balamıza bir neçə dəfə məktəb rəhbərliyi tərəfindən yaxşı oxuması münasibəti ilə ”Fəxri Fərman” təqdim olunub. İdmanla maraqlanan Elçin gələcəkdə məşhur idmançı olmaq istəyir. Anasının dediyinə görə o, idmanın boks növü ilə maraqlanır və aktiv məşğul olur. Elə gələcəkdə də bu sahə üzrə özünü yetişdirərək dövlətimizin idman tarixində öz izlərini qoymaq,dövlət bayrağımızı başqa dövlətlər arasında yüksəltmək istəyir. Asudə vaxtlarını Elçin kitab oxuyaraq və kompyuterdə internet vasitəsi ilə maraqlı araşdırmalar apararaq keçirir.

Evin tək övladı olan Elçinin anası Mehrəliyeva Zülfiyyə Nüsrət qızı evdar xanımdır. O,çox mehriban və zəhmətkeşdir. Onun ən böyük arzusu Elçinin gələcəyini parlaq və uğurlu görməkdir. Onun yeganə arxa-dayağı olan övladı onun həyatının mənası, gələcəyi və aldığı nəvəsidir. Çox istəyir ki, Elçin sağ-salamat orta məktəbi uğurla bitirib ali təhsil alsın və sevib seçdiyi idman sahəsi üzrə uğurlu nailiyyətləri olan bir idmançı olsun.

”Çağdaş Təhsil” jurnalının kollektivi olaraq biz də ananın bütün istəklərinə qoşularaq Elçinə ən ülvi və ən doğma arzularımızı bildiririk.Qoy onun həyatı özünün və anasının arzuladığı, xəyal dünyasında planını qurduğu kimi parlaq, uğurlu və işıqlı olsun!








# İBAYEVA MƏTANƏT





**”Müəllim insanları aydınlığa çıxaran işığa bənzəyir”**
***(Viktor Hüqo)***

Müəllim gənc nəslin formalaşmasında mühüm rol oynayır.Müəllim sözü müqəddəs deyil müqəddəs olan müəllimlikdir. Müəllim yüksək nüfuz sahibinə, dərin bilik və mənəviyyata malik insandır.Müəllimlik həm şərəfli, həm də məsuliyyətli işdir çünki o ən qiymətli kapital olan insanla işləyir.Müəllimlik barədə Ralf Uold Emersonun müdrik kəlamı vardır.”Yaxşı müəllim daha çox faktları çatdıran şəxs yox varlığı ilə bizi fərqli insana çevirən şəxsdir”

Bir cəmiyyətin inkişaf edib sivilizasiya nöqtəsinə çatması üçün mütləq müəllimlərə ehtiyac vardır, çünki müəllimlər cəmiyyəti həqiqi bir millət halına gətirirlər. Gələcəkdə müəllim olmaq üçün bütün var qüvvəsi ilə indidən çalışan qəhrəmanlarımızdan biri də İbayeva Mətanət Zaur qızıdır.

O, 26 avqust 2009-cu ildə vətənimizin isti guşələrindən olan Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. 2015-ci ildə Sabirabad rayon Qaratəpə kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 4”b”sinif şagirdidir. Təhsil almağa başladığı ilk gündən Mətanət müəllimlərinin, dostlarının sevgisini və hörmətini qazanmışdır. Dərslərinə qarşı məsuliyyət və həssaslıqla yanaşan Mətanət sevimli fənləri olaraq Azərbaycan dili və riyaziyyat fənlərinin adını qeyd edib. Sevimli müəllimləri isə Elnurə, Rəşad, Səadət adlı müəllimləridir. Həmişə dərslərinə yaxşı hazırlaşıb yüksək qiymətlər alan Mətanət sinif nümayəndəsidir. Sinif nümayəndəsi isə müəllimdən sonra sinifdə ikinci adamdır. Məktəbdə keçirilən tədbirlərdə yaxından iştirak edən Mətanətin həm də gözəl şeir demək bacarığı var. Gələcəyinə böyük ümidlərlə baxan Mətanətin ən böyük arzusu müəllim olmaqdır.Bu peşəni ona sevdirən müəllimləri olmuşdur. Mətanət bildirib ki, o da müəllimləri kimi savadlı, peşəkar kadr olaraq gələcək nəsillərə öz töhvələrini verəcək.Bu peşəni ona sevdirən müəllimlərinə öz təşəkkürünü bildirib. Mətanət asudə vaxtlarını oyun oynamaqla və rəsm çəkməklə keçirir.

Mətanətin ailəsi 4 nəfərdən ibarətdir.

Atası İbayev Zaur Ağaşirin oğlu 1976-cı ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. Hal-hazırda fərdi təsərrüfatçıdır.

Anası İbayeva Kifayət Əlmurad qızı 1979-cu ildə anadan olub. Hazırda evdar xanımdır.

Qardaşı İbayeva Ağaşirin Zaur oğlu 2001-ci ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. Hal-hazırda 10-cu sinifdə oxuyur.

Bacısı İbayeva Təranə Zaur qızı 2002-ci ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. Hazırda 10-cu sinifdə oxuyur. Ailəsi daim Mətanəti dəstəkləyir onun gələcəyinin parlaq olması üçün bir valideyn kimi əlindən gələni əsirgəmirlər.

Biz də öz redaksiyamız adından Mətanətə uğurlar arzulayır elm-təhsil sahəsindəki müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Həyat uğurları ilə daim müəllimlərinin və ailəsinin fəxri olsun.

# İnci Qurbanova





**"Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir"**

***(F.Bekon)***

Təhsil prosesində insan mədəni dəyərləri (elm, incəsənət, memarlıq, tarixi irs və s.) mənimsəyir, nəticədə qarşılıqlı təsirlər nəzərə alınaraq müxtəlif mədəniyyətlər əsasında mədəni dəyərlər vasitəsilə gənc nəslin təhsili və tərbiyəsi prosesinin elmi əsaslarla həyata keçirilməsi təmin edilir. Bu halda qarşılıqlı təsir, insanlar tərəfindən yeni mədəni dəyərlərin mənimsənilməsi və yenidən qurulması çərçivəsində əsl yaradıcılıq prosesi kimi qəbul edilir və mədəniyyətin dinamik aspektilə birbaşa bağlı olur. Təhsil uzun illər ərzində nəsillər tərəfindən toplanmış bilik və mədəni dəyərlərin ötürülmə prosesidir. Zamanla bu dəyərlər müəllimlər vasitəsilə şagirdlərə, köhnə nəsillərdən yeni nəsillərə ötürülür.

Jurnalımızın bu yazısının qəhrəmanı İnci Qurbanova Mahir qızıdır. İnci Qurbanova Mahir qızı 2010-cu il aprel ayının 17-də Bərdə rayon Yeni Daşkənd kəndində dünyaya göz açmışdır. 2016-cı il il sentyabr ayının 15-də İnci Bərdə rayon Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hazırda İnci sözügedən məktəbin 3-cü sinifində təhsilini uğurla davam etdirir. Baxmayaraq ki, hələ 3 ildir təhsil alır,İnci bu qısa vaxt ərzində müəllimlərinin hörmətini və sevgisini qazanmağı bacarıb. Az yaşlı olmasına baxmayaraq İnci oxumağa,öyrənməyə çox meyillidir. O , hər zaman dərslərinə qarşı həvəs və məsuliyyət hissi ilə yanaşır. Dərslərində hər zaman qabaqcıl olan İnci bir neçə dəfə məktəb üzrə keçirilmiş sınaq imtahanlarında iştirak etmiş, yüksək yer tutduğuna görə "Fəxri Fərmanlar"la təltif olunmuşdur. İnci dəqiq fənləri çox sevir, onun ən sevdiyi fənn riyaziyyatdır. O, boş vaxtlarında riyaziyyatdan məsələ və misallar həll etməyi çox sevir. O, müəllimlərinin adını çəkərkən Zülfiyyə və Aynur müəllimlərini adını xüsusilə qeyd edir. İnci dərslərini yaxşı oxuması ilə yanaşı, həm də rəsm sahəsində qeyri-adi istedadı ilə tanınır. Bu istedad onun gözəl və maraqlı rəsmlərində özünü büruzə verir. Bundan dolayı İnci təsviri incəsənət dərsini çox sevir. İncinin həyatda ən böyük arzusu rəsm müəllimi olmaqdır, yəni istedadının arxasınca gedib onu püxtələşdirməkdir. O, bu yolla insanların daxili aləminin gözəlliklərini fırçalarla, rəngli boyalarla ağ vərəq yaxud tablo üzərində əks etdirməyi və bu yolla dünyamızı gözəlləşdirmək istəyir.

Müəllimlərinin sevimlisi olan İncinin ailəsi 3 nəfərdən ibarətdir. Atası İsmayılov Mahir İsmayıl oğlu 1966-cı ildə doğulub, o, vəfat edənə qədər çox mehriban və gözəl ailə başçısı olub, ailəsinin yaddaşında xoş xatirələrlə qalıb. Anası Ələkbərova Qaragöz Ələkbər qızı 1967-ci ildə doğulub,evdar xanımdır. Qardaşı Qurbanov Zamin 1988-ci ildə doğulub,bacısı Türkan xanım isə 1994-cü ildə doğulub,hazırda ailəlidir. Türkan xanım da məktəbdə oxuduğu dövrdə istedadı və çalışqanlığı ilə seçilmiş şagirdlərdən olub.

Biz də öz adımızdan İncini təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, bu rəngarəg, zəngin dünyasında bütün arzuları çin olsun. Qazandığı uğurları ilə daim valideynlərinin və müəllimlərinin fəxri olsun!



# VƏLİZADƏ RAUF






**"Elm əvvəlcədən yazılmış kitabdır. Və alimlər onu yazmağa deyil, oxumağa çalışmalıdırlar"**

**(Əbu Turxan)**

Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa ,yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər onlar olmasaydı, Azərbaycan iqtisadiyyatı və elmi inkişaf edə bilməzdi, təhsil sistemi yenilənməzdi. Təhsil insan həyatının vacib hissələrindən biri olub, onun taleyində həlledici rol oynayır. Hər bir ölkədə təhsil sahəsində atılan addımlar onu sübut etməyə imkan verir ki, ölkənin gələcəyinin potensial inkişafı və dinamikası onun təhsil səviyyəsindən asılıdır. Təhsilin, elmin əsas məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ölkəmizdə hal-hazırda təhsil sistemi çox güclü inkişaf etmişdir hal-hazırda elə bir insan yoxdur ki, təhsil almasın. Təhsil almaq yolunda inamla addımlayan bacarıqlı və çalışqan şagirdlərimizdən biri də Vəlizadə Rauf Sabir oğludur.

Vəlizadə Rauf Sabir oğlu 10 aprel 2010-cu ildə Bərdə rayonunun Huseynalılar kəndində zəhmətkeş bir ailədə anadan olub. 2016-cı ildə Bərdə rayonu N.Malıyev adına Qaradırnaq kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 3a sinifində oxuyur. Rauf çox çalışqan şagirddir. O, hələ məktəbə ilk qədəm qoyandan daim öz təlim-tərbiyəsi və çalışqanlığı ilə müəllimlərinin diqqət mərkəzində olmağı bacarıb. Raufun sevimli fənləri Azərbaycan dili ,riyaziyyat, ingilis dili, musiqini sevimli müəllimlərindən isə Rüxsarə və Fatimə adlı müəllimlərinin adını qeyd edir. Raufla apardığımız kiçik müsahibədən aydın oldu ki, o artıq öz gələcək peşəsini indidən seçdiyini və məqsədinə çatmaq üçün daim dərslərinə önəm verdiyini, onlara məsuliyyətli yanaşdığını qeyd edib. O bildirir ki, gələcəkdə həkim olmağı və bu humanist sənətin sirlərini öyrənməyi istəyir. Peşəkar tibbi kadr olmaqla o, xalqına layiqli vətəndaş kimi daim onların sağlamlıqlarının keşiyində dayanacağını qarşısına əsas məqsəd qoyub. Rauf boş vaxtlarında maraqlı kitablar oxuyur, zəngin mütaliələr edir. Rauf ailəsinə bağlı bir övladdır ki, istəyir daim uğurları ilə valideynlərini sevindirsin, onlara baş ucalığı gətirsin. Valideynlərinin də həyatda yeganə istəyi övladlarının uğurlu gələcəyi və parlaq taleyinin olmasıdır.

Raufun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Vəliyev Sabir Azay oğlu 24 may 1979-cu ildə Bərdə rayonun Hüseynalılar kəndində anadan olub. Orta təhsillidir. Hal-hazırda Bərdə rayon 2 nömrəli pambıq zavodunda ağır texnika sürücüsüdür.

Anası Əhmədova Tünzalə Həbib qızı 23 fevral 1988-ci ildə Bərdə rayonunun Hüseynalılar kəndində anadan olub.Ali təhsillidir. Tibb Universitetinin Stamatologiya fakultəsin bitirib. Hal-hazırda isə evdar xanımdır.

Qardaşı Vəlizadə Rəbbi Sabir oğlu 29 may 2008-ci ildə Bərdə rayonunun Hüseynalılar kəndində olub. Hal-hazırda 5-ci sinifdə oxuyur.

Biz də öz heyətimiz adından gələcəyin həkiminə müvəffəqiyyətlər arzulayır. Hər bir işində, arzusunda ona uğurlar arzulayırıq.

# VƏLİZADƏ RƏBBİ







***"Elmin hüdudları üfiq xəttinə oxşayır: biz ona nə qədər yaxınlaşsaq,o bizdən bir o qədər uzaqlaşar"***

***(P.Buast)***

Elm təkcə bilik deyil, həm də şüurdur. Şərq filosofu İbn Sina bildirmişdir ki, elm öyrənmək heç vaxt gec deyil. Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyayı fəth etmək naminə öyrənirlər.Elm öyrənməyin yeganə mənbəyi olan təhsil ocaqları təhsilin keyfiyyəti, tətbiq etdiyi yenilikləri, potensial imkanları ilə fərqlənir.

Ən yaxşı inkişaf etmiş ölkələrin inkişafında aparıcı rol elmi-texniki tərəqqi, sahib olduğu güclü təhsil sistemidir. İnsana başucalığı gətirən bir sıra keyfiyyətlər vardır ki, onun da ən başlıcası elmdir. Elm insan həyatının hərtərəfli tərəqqisinə hava ,su kimi lazımdır və məhz buna görə də hər zaman elm öyrənmək, dərs oxumaq lazımdır ki, sonda nəticə olaraq vətənimizin, iqtisadiyyatmızın çiçəkləndirilməsində mühüm rol oynayaq. Elm hər bir millətin yaşayıb, irəliliyə doğru addımlamasında təməl daşıdır. Bir millətin yaşayıb inkişaf etməsi üçün, intellektual səviyyəli,potensial kadrlarının olması vacibdir. Vaxtını elmə, öyrənməyə sərf edən qəhrəmanlarımızdan biri də Vəlizadə Rəbbi Sabir oğludur.

Vəlizadə Rəbbi Sabir oğlu 29 may 2008-ci ildə Bərdə rayonunun Hüseynalılar kəndində anadan olub. 2014-ci ildə N.Malıyev adına Qaradırnaq kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 5b sinifində oxuyur. Rəbbinin sevimli fənləri Azərbaycan dili və tarixdir. Çünki bu fənlər onda xüsusi maraq yaradır və bildirir ki, dilimiz çox zəngin və ahəngdar dil olmaqla yanaşı, həm də dərin tarixi kökləri vardır. Sevimli müəllimləri olaraq isə İradə və Siyasət adlı müəllimlərin adını vurğulayıb onların çox qayğıkeş ,nəvazişli, vicdanlı və peşəkar olduğunu və şagirdlərinə öz övladları kimi baxdığını qeyd edib. Çalışqan şagirdimiz bildirib ki, dərslərindən aldığı yüksək qiymətlər onun ən böyük uğurudur və o, hazırda əlaçılardandır. Rəbbi həmçinin boş vaxtlarında maraqlı əsərlər oxumağı və fiziki yorğunluğu aradan götürmək üçün idmanla məşğul olmağı, o cümlədən dostları ilə gəzintiyə çıxmağı xoşlayır. Rəbbi artıq öz gələcək peşəsini də indidən seçib onun arzusu yüksək bal toplayıb, Polis Akademiyasına daxil olmaqdır. O, bildirib ki, polislik mənim üçün ən ali və şərəfli sənətdir, çünki xalqa ləyaqətli xidmət etmək düşünürəm ki, hər bir vətəndaşın borcudur. Polis cinayətkarlıqla mübarizə aparır, dövlətin hər bir vətəndaşın hüququnu qoruyur, vətəndaşların təhlükəsizliyini təmin edir. Rəbbinin həyatda ən böyük idealı atasıdır və o, gələcəkdə atasına oxşamağı və onun kimi zəhmətkeş olmağı istəyir.Rəbbinin uğura doğru addımladığı bu yolda onun ən böyük dəstəkçiləri ailəsidir. Rəbbinin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Vəliyev Sabir Azay oğlu 24 may 1979-cu ildə Bərdə rayonunda anadan olub. Orta təhsillidir. Hal-hazırda Bərdə rayonu 2 nömrəli pambıq zavodunda ağır texnika sürücüsüdür. Zəhmətkeş insandır, daim övladları üçün əlindən gələni əsirgəmir, gecəsini gündüzünə qataraq onlar üçün çalışır, zəhmət çəkir.

Anası Əhmədova Tünzalə Həbib qızı 23 fevral 1988-ci ildə Bərdə rayonunda anadan olub. Ali təhsillidir. Ali tibb Universitetinin Stamatologiya fakultəsini bitirib. Hal-hazırda evdar xanımdır.

Qardaşı Vəlizadə Rauf Sabir oğlu 10 aprel 2010-cu ildə Bərdə rayonunda anadan olub. Hal-hazırda 3-cü sinifdə oxuyur. O da çalışır ki, həm təhsilində, həm tərbiyəsində qardaşına oxşasın.

Biz də öz adımızdan Rəbbi balamıza gələcək həyatında uğurlar arzulayır, uğur və nailiyyətlərinin davamlı olmasını diləyirik.



# ƏLİZADƏ ƏLİPAŞA







**"Bilik xəzinədir onun açarı sualdır. Bilmədiyiniz şeyi soruşun ki ,Allah sizə öz rəhmətini əta etsin"**

**(Qurani Kərim)**

Gözəl əxlaq və tərbiyəni özündə əks etdirən dinimiz olan İslamda da elmlə məşğul olan insan Allaha ibadət etmiş sayılır. Elm, bilik sahibi olub başqalarına öyrətmək ən böyük savab, ibadətdir. Hətta Peyğəmbərimiz bildirib ki, elm sahibi olmaq üçün 40 il ibadət etmək lazımdır. Digər bir hədisdə buyurulur ki , öyrənin, öyrədin düşünün dünyadan cahil olaraq getməyin . Əli "Ğürərül -hikəm " kitabı isə elm və biliyi belə vəsf edir. "Elm qələbə gətirir, elm bəlalar qarşısında bir səddir, ən böyük ehtiyacsızlıqdır". Elm əqlin nuru, gözəl vaiz ,ən yaxşı hidayət, ən faydalı xəzinə hesab hesab olunur. Əli peyğəmbər elmlə, var-dövlətin yeddi köklü fərqi olduğunu buyurmuşdur. " Elm peyğəmbərlərin var-dövlət isə fironların mirasıdır"çünki elm xərcləndikdə azalmır, var-dövlət isə xərcləndikdə azalır. Var-dövlətin keşikçiyə ehtiyacı vardır, elm isə özü insanın keşiyini çəkir, elm insanla birgə axirətə köçür, var-dövlət isə bu dünyada qalır.

Bu gün ölkənin iqtisadiyyatının, mədəniyyətinin inkişafı məhz elmin inkişafı ilə bağlıdır. Odur ki uşaqlar, məktəblilər məktəbə qədəm qoyduğundan ömrünün sonuna kimi kitaba bağlanmalıdır. Kitaba, elmə bağlı olan növbəti qəhrəmanlarımızdan biri də Əlizadə Əlipaşa Natiq oğludur.

Əlizadə Əlipaşa Natiq oğlu 15 avqust 2008-ci ildə Bərdə rayonunun Hacılar kəndində anadan olub. 2014-cü ildə N.Malıyev adına Qaradırnaq kənd tam orta məktəbinə daxil olub. Hazırda Əlipaşa qeyd etdiyimiz həmin məktəbin 5b sinifində təhsilini davam etdirir. O məktəbin ilk günlərindən öz ağılı, savadı dərslərə məsuliyyətli olmağı ilə yoldaşlarından həmişə fərqlənmiş müəllimlərinin sevgisini, rəğbətini qazanmışdır. Dərslərində hər zaman fəal olan Əlipaşa sevimli fənləri olaraq Azərbaycan dili və tarix fənlərinin, sevimli müəllimləri olaraq isə İradə və Siyasət adlı müəllimlərinin adını qeyd edir. O, xüsusilə bu müəllimlərini sevdiyini, onlara xüsusi rəğbət bəslədiyini vurğulayıb. Əlipaşa qeyd edib ki, 2019-cu ildə "Kaspi" tədris mərkəzinin təşkil etdiyi sınaq imtahanında ən yüksək nəticə göstərərək "Tərifnamə" ilə təltif edilmişdir. İstedadlı və ağıllı balamız boş vaxtlarında belə dərsləri ilə məşğul olduğunu, əlavə testlər işlədiyini qeyd edib. İstedadlı balamızla apardığımız kiçik müsahibədən aydın oldu ki, onun gələcəkdə ən böyük arzusu hərbiçi olmaqdır. O, qeyd edib ki, vətənin müstəqilliyi və torpaqlarımızın bütövlüyü naminə bu şərəfi işi layiqincə yerinə yetirməyi istəyir. O, qeyd edib ki, ən böyük arzusu gələcəkdə torğaqlarımızın sülh yolu ilə geri qaytarılmağı və ərazi bütövlüyünün bərpa edilməsidir. Biz xalq olaraq bir yumruq kimi daim birləşməli, birgə mübarizə aparmalıyıq. Xalqımızda birlik ,həmrəylik o qədər yüksək olmalıdır ki, insanlar vətən üçün, torpaq üçün canlarından belə keçməlidir. Əlipaşanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Əliyev Natiq Paşa oğlu 6 iyun 1983-cü ildə Bərdə rayonunun Hacılar kəndində anadan olub.Orta təhsillidir. Hal-hazırda kənd təsərrüfatı ilə məşğul olur.

Anası Əliyeva Gülşən Feyzulla qızı 15 iyun 1986-cı ildə anadan olub. Orta təhsillidir. Qayğıkeş ana və gözəl evdar qadındır. Daim uşaqlarının tərbiyəsi, təhsili ilə yaxından maraqlanır.

Qardaşı Əlizadə Murad Natiq oğlu 12 iyun 2006-cı ildə anadan olub. Hazırda 7-ci sinifdə oxuyur. O, kiçik qardaşı Əlipaşaya çox kömək edir və çalışır ki, bildiklərini ona da öyrətsin.

Bacısı Əlizadə Nuray Natiq qızı 15 aprel 2012-ci ildə anadan olub. Hazırda 1-ci sinifdə oxuyur.

Biz də öz heyətimiz adından Əlipaşanı təbrik edir ona gələcək həyatında uğurlu və müvəffəqiyyətli ömür arzu edirik. Həyatın uğurlu, taleyin nurlu olsun!

# Əlizadə Mübariz





**“Müəllim, bir zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələr öz özlərinə fikirlərini inkişaf etdirmələri üçün onları cəlb edən bir insan olmalıdır”**

**(A.Karrel)**

Təhsil insanların sosiallaşma təcrübəsi və nəsillərin varisliyi əsasında təzahür edir. Ona görə də təhsil tarixi və sosial təcrübənin yenidən istehsalı və ötürülməsi, eyni zamanda yeni yetişən gənc nəslin təfəkküründə siyasi və iqtisadi reallıqları, ictimai və mədəni inkişafın yeni oriyentirlərini möhkəmləndirməyə və inkişaf etdirməyə imkan verir. Təsadüfi deyildir ki, təhsilin ən mühüm vəzifələrindən biri gənc nəsli sərbəst həyata və gələcəyə hazırlamaq, kamil insanın, şəxsiyyətin formalaşmasını təmin etməkdir.

Öyrənməyə,innovasiyaya can atan şagirdlərdən biri də Əlizadə Mübarizdir. Əlizadə Mübariz Babək oğlu noyabr ayının 1-i 2004-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində dünyaya göz açmışdır. O, 2010-cu il sentyabr ayının 15-də Bərdə rayon Yasif Kərimov adına Yenidaşkənd kənd tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda Mübariz həmin məktəbin 9b sinifində təhsilini davam etdirir. Bütün dərslərini yaxşı oxuyan Mübariz fizika fənninə xüsusi həvəsi olduğunu qeyd edir. O,bütün müəllimlərinə hörmət hissi ilə yanaşdığını bildirir, ancaq Aysel müəlliminin adını xüsusilə çəkərək,onu çox sevdiyini, tapşırıqlarını məmnuniyyətlə yerinə yetirdiyini deyir. Təbii ki, hər bir şagirdin daha çox xoşuna gəldiyi və dərslərini məmnuniyyətlə oxuduğu müəllimi olur ki, Mübariz seçimini məhz Aysel müəllim üzərində qərarlaşdırır.Təlim prosesində müəyyən bilik və bacarıqlara yiyələnmiş Mübarizin idman sahəsində xüsusi istedadı var. O, idmanın “kick boxing” növü ilə peşəkar





# Tofiqli Uğur







**“Yalnız ağıl və idrakın hökmünə tabe edilən istedad, həqiqətən gözəl bədii əsərlər yarada bilər”**

***(N.Bualo)***

Elmi iş öz təbiətinə görə kollektiv fəaliyyət sahəsidir. Gözlənilən məqsəd isə bütün dövrlərin, ölkələrin elm adamlarının axtarışlarının nəticələri uzlaşaraq, dünyadakı qaydanın daha aydın elmi şəklini verməkdən ibarətdir. Elm adamları bir rəssam kollektivi kimi bu böyük, bu sonsuz mükəmməlləşən lövhənin ayrı-ayrı parçalarını, fraqmentlərini “yaradırlar”. Dünyanı bir vəhdət kimi görmək məqsədi güdən bu yaradıcılıq, insanın bütün imkanlarının səfərbərliyini tələb edir.

Jurnalımızın bu sayında Tofiqli Uğur Rəşad oğlu haqqında yazını oxucularımıza təqdim edirik. Tofiqli Uğur Rəşad oğlu 2007-ci ildə iyul ayının 8-də Bərdə şəhərində dünyaya göz açmışdır. O,2013-cü ildə Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 1-ci sinifində oxumağa başlamışdır. Hazırda Uğur həmin məktəbin 6-cı sinifində təhsilini uğurla davam etdirir. Bütün dərslərini yaxşı qiymətlərlə oxuyan Uğur Azərbaycan dili və ədəbiyyat fənlərini həvəslə oxuduğunu bildirir. Çalışqan şagird olan Uğur bu fənləri oxumaqda onları həvəsləndirən müəllimlərdən Gülşən müəllim,Nuranə müəllim və Əli müəllimin adlarını çəkmiş,onları çox sevdiyini , verdiyi tapşırıqlarını həvəslə yerinə yetirdiyini bildirmişdir. Uğurun arzusu gələcəkdə məhşur futbolçu olub doğma Azərbaycanımızı idman sahəsində digər ölkələr arasında tanıtmaqdır. Bu sahədə Uğura fiziki tərbiyə müəllimi Əli müəllim böyük köməklik göstərir. Ona bu sahədə dəstək olur. Məqsədinə çatmaq üçün Uğur məsuliyyətlə və diqqətlə çalışır. O, bilir ki,əziyyət çəkmədən heç nəyə nail olmaq mümkün deyil. Peşəkar,məhşur futbolçu olmaq istəyən Uğur boş vaxtlarını da futbol oynamaqla keçirir,- həmçinin musiqiyə qulaq asır,rəsm çəkir.

Müəllimlərinin sevimlisi olan Uğurun kiçik ailəsi var. Uğurun ailəsi 3 nəfərdən ibarətdir. Atası Səfərov Rəşad 1984-cü ildə yanvar ayının 28-də anadan olmuşdur. Ticarətlə məşğul olur. Anası Səfərova Pərvanə 1984-cü ildə sentyabrın 27-də dünyaya göz açmışdır. Şirkətdə direktor olaraq fəaliyyət göstərir. Qardaşı Tofiqli Tofiq isə Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 3-cü sinifində təhsil alır. O, sınaq imtahanlarında yüksək bal toplayıb “Sertifikatlara” layiq görülmüşdür.

Biz də öz adımızdan Uğur balamızı təbrik edir,gələcək həyatında uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki,seçdiyi sənətdən aslı olmayaraq peşəsinin sayılıb-seçilən,öz sözünü deyən mütəxəssisi olsun. Daim ailəsinin və valideynlərinin fəxri olsun!







# SƏFƏROVA XƏYALƏ







**"Ey yüksələn yeni nəsil gələcək sizindir. Onu biz qurduq. Onu yüksəldəcək və davam etdirəcək sizlərsiniz"**

**(Mustafa Kamal Atatürk)**

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyi qədim dövrlərdən məlumdur. Ta qədim zamandan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Qədim zamanlara nisbətən elmin inkişafı müasir dövrdə daha asandır, çünki elmi- texniki tərəqqinin inkişafı nəticəsində elmi nailiyyətlər əldə edilmiş kompüter erasına qədəm qoyulmuşdu. Ölkəmizdə də bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır.

Hal-hazırda dövlət savadlı kadrların hesabına iqtisadi hərbi və elm sahəsində irəriləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq hər bir şəxsə bilik və bacarıqların verilməsi məqsədilə təhsil sisteminin institusional əsasları və insan resursları inkişaf etdirilməlidir. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Jurnalda haqqında yazacağımız qəhrəmanlarımızdan biri də Səfərova Xəyalə Eyvaz qızıdır.

Səfərova Xəyalə Eyvaz qızı 5 iyun 2006-cı ildə Şəmkir rayonunun Dağ-Cəyir kəndində anadan olmuşdur. 2013-cü ildə Laçın rayon 28 saylı tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 6"a" sinfində oxuyaraq öz təhsilini davam etdirir. Daim dərslərinə diqqətlə və məsuliyyətlə yanaşan Xəyalə sevimli fənləri olaraq coğrafiya, ümumi tarix və ingilis dili fənlərinin adını qeyd edir və bildirir ki, xüsusi ilə də tarix və coğrafiya fənninə olan marağı böyükdür. Ölkələrin coğrafiyası və tarixi haqqında maraqlı məlumatlar tapmağı və araşdırmağı xoşlayır. Sevimli müəllimləri olan Nazifə, Cəmalə və Günel müəllimlərinin xeyirxah, ədalətli ,peşəkar müəllim olduqlarını qeyd edib.Hər birimizin qəlbində müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim bizə doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla və səbrlə işləməyi öyrədir. Xəyalə asudə vaxtlarını dərs oxumaqla və rəsm çəkməklə keçirdiyini bildirib. Onun həm də gözəl əl qabiliyyəti var maraqlı şəkillər çəkir. Xəyalə bildirib ki, uğurlarım təkcə dərslərimdən aldığım yüksək qiymətlərlə bitmir. Yaxşı oxuduğuna və nümunəvi şagird olub digər uşaqlardan fərqləndiyinə görə 2017-ci ildə "Fəxri Fərman" la təltif edilib. Xəyalənin ən böyük arzusu yüksək bal toplayıb Tibb Universitetinə daxil olmaq və peşəkar həkim kimi fəaliyyət göstərməkdir. Daim sağlamlığı ilə bağlı əziyyət çəkənlərin səhhətinin qorunmasına xidmət etmək onun ən müqəddəs məramıdır. Xəyalənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Səfərova Eyvaz Səməd oğlu 1986-cı ildə anadan olub. 33 yaşı var .Orta təhsillidir. Hal-hazırda satıcı işləyir. Uşaqlarına daim gözəl tərbiyə, təhsil verir, hər bir anlarında daim onların yanında və arxasında dayanır.

Anası Səfərova Əfsanə Nəzir qızı 1989-cu ildə anadan olub. 30 yaşı var. Hal-hazırda evdar qadındır. Bir ana kimi o da uşaqları üçün əlindən gələni əsirgəmir. Ən böyük arzusu uşaqlarının gələcəyinin parlaq olması-dır.

Qardaşı Səfərli Xəyal Eyvaz oğlu 22 yanvar 2011-ci ildə anadan olub. Hal-hazırda 2-ci sinifdə oxuyur.

Redaksiyamız adından Xəyalə balamıza gələcək həyatında bol-bol uğurlar, nailiyyətlər arzulayırıq. Ömür yolu açıq, uğurları bol, şansları dəyərləndirilmiş olsun.


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
LAÇIN RAYON TƏHSİL ŞÖBƏSİ
LAÇIN RAYON 28 NÖMRƏLİ TAM ORTA MƏKTƏB

Fəxri Fərman

Məktəbin 4a sinif şagirdi Səfərova Xəyalə Eyvaz qızı

2016 / 2017 - ci tədris ilində yüksək intizam və əla təlim göstəricilərinə nail olduğu üçün

TƏLTİF OLUNUR !

LAÇIN RAYON 28 NÖMRƏLİ TAM ORTA MƏKTƏBİN DİREKTORU: NOFƏL İSMAYILOV

Bakı - 2017





səviyyədə məşğul olur. Mübariz idman dərslərini Bərdə rayon İdman Kompleksində alır. Onun bu sahədə bir çox uğurları var. Mübariz Bakı şəhərində keçirilmiş "Bakı open" yarışmasında 3-cü yerə, Mingəçevir, Bərdə, Samux, Neftçala rayonlarında keçirilmiş idman yarışlarında 1-ci yerə çıxdığı üçün "Diplom" və "Fəxri Fərmanlar"la təltif olunmuşdur. Mübariz qeyd edir ki, uğurlarına görə idman müəllimi Ədalət Əsədova borcludur. Məhz Ədalət müəllim Mübarizin uşaqlıq həvəsi olan idman sahəsindəki istedadını üzə çıxarmışdır. Mübarizin gələcəkdəki idealı Ədalət müəllimdir. O, da Ədalət müəllim kimi "kick boxing" sahəsində öz sözünü demiş, tanınmış idmançı olmaq istəyir.

Mübarizin ailəsi 4 nəfərdən ibarətdir. Atası Əliyev Babək 1983-cü ildə Bərdə rayon Yenidaşkənd kəndində anadan olmuşdur. O, çox mehriban, bacarıqlı və qabiliyyətli insandır. Babək bəy usta olaraq fəaliyyət göstərir. Ailə üzvləri onu çox sevir. Anası Əliyeva Rita 1983-cü ildə doğulub. O, evdar xanımdır və övladlarının təlim-tərbiyəsi ilə məşğul olur. Bacısı Əlizadə Jalə 2006-cı ildə Bərdə rayon Yenidaşkənd kəndində anadan olub, o, Mübariz kimi məktəblidir, onunla eyni məktəbin 8-ci sinifində təhsil alır. O,da qardaşı kimi istedadlı və nümunəvi şagirddir.

Biz də kollektiv olaraq jurnalımız adından gələcəyin idmançısına uğur və müvəffəqiyyətlər arzulayır,gələcək həyatında arzularının çin olmasını diləyirik. Arzu edirik ki,həyatı gözlədiyindən parlaq və böyük uğurlarla zəngin olsun!



# Aysel Quluzadə



**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər"**

***(Frensis Bekon)***

Müasir dövrdə təhsilin əsas vəzifəsi vətəndaş cəmiyyətində yaşayacaq insanın formalaşmasının vasitə və yollarını müəyyənləşdirmək, onu yüksək mənəvi ideallara və dəyərlərə yiyələnmək, insan həyatının mənasını anlamaq və dərk etməyə, öz şəxsi həyatında daim nailiyyətlər əldə etməsi üçün səy göstərməyə hazırlamaqdır. Bu tələblərə cavab verən insan ilk növbədə milli dəyərlər əsasında tərbiyə almalıdır. Eyni zamanda unudulmamalıdır ki, inkişafa istiqamətlənmiş cəmiyyətin fəaliyyətini dünya mədəniyyəti və təhsilindən ayrı, təcrid edilmiş şəkildə təsəvvür etmək mümkün deyil.

Jurnalımızın bu sayında haqqında danışacağımız istedadlı şagirdlərdən biri də Aysel Quluzadədir. Aysel Quluzadə Şahin qızı 2002-i ildə may ayının 21-də Bərdə şəhərində anadan olmuşdur. 2008-ci ildə Aysel Bərdə rayon Zərifə Əliyeva adına məktəb-liseydə təhsil həyatına qədəm qoymuşdur. Hazırda Aysel sözügedən liseyin 11-ci sinifində təhsilini uğurla davam etdirir. Məktəbə başladığı ilk gündən Aysel dərslərində hər zaman yoldaşlarından irəli olmağa can atmışdır. Burdan məlum olur ki, Aysel müsbət mənada sağlam rəqabəti çox sevir. O, ilk gündən öyrənməyə meyilli şagird olduğu üçün müəllimlərinin sevgisini qazanmağı bacarmışdır. Belə şagirdlərlə işləməyə şübhəsiz ki, müəllimlərin də xüsusi marağı olur. Humanitar sahədən olan dərslərinə də hazırlaşan Aysel dəqiq fənlərə xüsusi həvəslə yanaşır. Daim öyrənməyə can atır. Onun ən sevdiyi fənlər riyaziyyat və dünya təbiətindən ensiklopedik məlumatları özündə cəmləşdirən coğrafiyadır. Elə Ayselin ən sevdiyi müəllimlər də bu fənləri oxumaqda ona maraq oyandırmış Allahverdi müəllim və Zülfiyyə müəllimdir. Ayselin ən böyük arzusu gələcəkdə dərslərini uğurla başa vurub iqtisadiyyat üzrə ali məktəbə daxil olaraq , bu sahə üzrə işləməkdir. Hədəfləri böyük olan Aysel məqsədinə çatmaq üçün çox çalışır, boş vaxtlarını da intellektual yarışlar izləməklə və belə yarışlarda iştirak etməklə keçirir. Aysel bir neçə dəfə rayon üzrə kursların keçirdiyi sınaq imtahanlarında iştirak etmiş, yüksək nəticələr göstərərək fərqlənmişdir. Uğurları bunlarla kifayətlənməyən Aysel həmçinin, "Nə? Harada? Nə Zaman?" yarışmasının qalibi olmuş, "Ölkəmizi tanıyaq" layihələrində 1-ci yerə çıxdığı üçün medal əldə edib, 2016-cı ildə "Nümunəvi Təhsil " layihəsində 1-ci yerə çıxıb. Uğurları saysız olan Aysel boş vaxtını musiqi dinləyərək keçirir.

Bir çox sahədə istedadları olan Ayselin ailəsi 4 nəfərdən ibarətdir. Atası Quliyev Şahin Həsən oğlu 1972-ci ildə doğulub, musiqiçidir. Anası Abuzərova Günel Musa qızı 1981-ci ildə anadan olub, hazırda evdar xanımdır. Ayelin qardaşı Həsən Quluzadə 2002-ci ildə doğulub, hazırda Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 9-cu sinif şagirdidir.

Biz də redaksiyamız adından Ayseli təbrik edir , uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, təlim və tərbiyəsi gələcək həyatında yoluna daima işıq tutsun. Gələcəkdə seçdiyi peşənin sayılıb-seçilən mütəxəssislərindən olsun. Daim öz uğurları ilə valideynlərinin fəxri olsun!



# SƏFƏRLİ XƏYAL







**"Elmin mənəvi siması onun kimin əlində olmasından asılıdır"**

**(Əbu Turxan)**

Elm əvvəlcədən yazılmış kitab , nura bənzəyən, işıqlandırıcı qüvvəyə malik olan bir qüvvədir. Elm insana qüdrət bəxş edən, onu öz məqsədlərinə çatdıran bir vasitədir. Elm öyrənmək üçün çoxlu kitablar oxuyub, mütaliələr aparmaq lazımdır, çünki kitab oxumaq düşüncəni inkişaf etdirməklə yanaşı, insana həyatın fərqli yönlərini dərk etməyə kömək edən yeganə vasitədir. Kitab dünya barəsində yığcam yol xəritəsi olmaqla insanların mənəviyyatlarını qidalandıran, cəmiyyət irəliyə aparan, fikirlərimizi daha səlis ifadə etməyimizə yardımcı olan yeganə vasitədir. Vaxtını, gəncliyini elmə sərf edən növbəti qəhrəmanlarımızdan biri də Səfərli Xəyal Eyvaz oğludur.

Səfərli Xəyal Eyvaz oğlu 22 yanvar 2011-ci ildə Bakıda anadan olub və dünyaya gəlişi ilə ailəsinə xoşbəxtlik sevinc gətirmişdir. 2016-cı ildə Laçın rayon 28 saylı tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 2"a" sinif şagirdidir. Xəyalın ən sevdiyi fənlər Azərbaycan dil və texnologiya fənni, sevimli müəllimi isə Tünzalə müəllimdir. Dərslərinə hər zaman hazırlıqlı və məsuliyyətlə yanaşan Xəyal müəllimlərinin hər zaman diqqət mərkəzində olmuşdur. Müəllimləri Xəyalın çox çalışqan və daim təlim-tərbiyəsi ilə digər şagirdlərə nümunə olduğunu bildirib. Onun ən böyük arzusu yüksək bal toplayıb, Polis Akademiyasına daxil olmaqdır. Xəyal qeyd edib ki, ona görə polislik bütün peşələrdən ən ali olanıdır.Xalqa sədaqətlə xidmət etmək hər bir vətəndaş kimi onun da borcudur. Düşünür ki, bu məsuliyyətli və çətin işin öhdəsindən məhz polis olmaqla gələcək .Asudə vaxtlarını isə Xəyal idmana, cüdoya, sərbəst güləşə getməklə keçirir. Xəyalın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Səfərov Eyvaz Səməd oğlu 1986-cı ildə anadan olub. 33 yaşındadır. Hal-hazırda paytaxt mağazalarının birində satıcı işləyir.

Anası Səfərova Əfsanə Nəzir qızı 1989-cu ildə anadan olub. 30 yaşındadır. Hal-hazırda evdar xanımdır.

Bacısı Səfərova Xəyalə Eyvaz qızı 5 iyun 2007-ci ildə anadan olub. Hal-hazırda 6-cı sinifdə oxuyur.

Biz də "Çağdaş Təhsil"jurnalının heyəti adından Xəyal balamıza uğurlar, böyük müvəffəqiyyətlər arzulayırıq. Hər zaman həyat yolu açıq, şansları dəyərləndirilmiş olsun!



# Əsmər Sadıqova





**"Bəzi insanlar incəsənəti başa düşür, bəziləri hiss edir, bəziləri isə həm başa düşür, həm də hiss edir"**

***(Holley)***

Orta məktəb illərindən uşaqların sənətlə ilk teması onları ömürlük sənət "əsiri" etməlidir. Axı onlar bu yaşda sənəti sənətə məxsus hisslə qarşılayırlar. Bu yaşda təbiət bilik mənbəyindən çox estetik həzz mənbəyi kimi daha həvəslə qəbul olunur. İnsanda sənət- elm körpüsünü əsası belə qoyula bilər,biliksevərlər belə tərbiyə oluna bilər. Şübhəsiz, orta məktəbdə alınan bilik elmi axtarış üçün bəs deyil o sonra təkmilləşdirilir.

Jurnalımızın bu sayında təhsil aldığı məktəbin istedadlı və qabaqcıl şagirdlərindən olan Sadıqova Əsmər Fərrux qızı haqqında qısa da olsa məlumat verməyə çalışacağıq. Sadıqova Əsmər Fərrux qızı 2006-cı ildə fevral ayının 13-də Bərdə rayon Mehdili kəndində dünyaya göz açmışdır. Tez böyüyüb məktəbə getməyə can atan Əsmər balamız 2012-ci il sentyabr ayının 15-də Bərdə rayon Mehdili kənd tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda ağıllı balamız Əsmər həmin məktəbin 7-ci sinifində təhsilini davam etdirir. Dərslərindən yaxşı qiymətlər alan Əsmər balamız idmanla da məşğul olur. O, idmanın qaçış növü üzrə yarışda iştirak etmiş, 1-ci yerə çıxmışdır. İdmana xüsusi həvəsi olan Əsmərin ən sevdiyi dərs elə Bədən tərbiyəsi fənnidir. Həmçinin Əsmərin təsviri incəsənətə də xüsusi həvəsi var,boş vaxtlarında Əsmər maraqlı şəkillər çəkməklə bu istedadını püxtələşdirir. O, ən çox rəğbət bəslədiyi müəllimlərdən Roza müəllimi və Nuridə müəllimlərinin adlarını çəkir, onları çox sevdiyini, tapşırıqlarını həvəslə yerinə yetirdiyini qeyd edir. Gözəl səsi tembri olan Əsmər məktəb üzrə keçirilmiş tədbirlərdə fəal iştirak etmiş, hər kəs tərəfindən bəyənilmiş, məktəb tərəfindən yüksək qiymətləndirilmişdir. Elə bu səbəblərdən Əsmərin gələcəkdəki ən böyük arzusu Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinə daxil olub təhsilini musiqi sahəsi üzrə davam etdirməkdir.

Əsmərin ailəsi 6 nəfərdən ibarətdir. Atası Sadıqov Fərrux Talıb oğlu 59 yaşındadır, gözətçi işləyir. Anası Sadıqova Fatma Cümşüd qızı 59 yaşındadır, evdar xanımdır. Bacıları Mədinə 37, Mətanət 35 yaşındadır, Xədicənin 34 yaşı var. Əsmərin bacıları ailəlidirlər. Qardaşı Talıb 27 yaşındadır.

Biz də öz redaksiyamız adından istedadlı balamız Əsmərə uğur və müvəffəqiyyətlər diləyirik. Qoy uğur baş tacı, kədər ayaq tozu olsun. Arzu edirik ki, uğurları, xoş taleyi ilə sevənlərini, doğmalarını sevindirsin!





# Quluzadə Həsən





**"Hər qab içinə bir şey qoyduqca daralır. Ancaq elm qabı istisnadır: o, elm qoyulduqca genişlənir"**

***( Hz.Əli ə.s.)***

Uşaqlıqda və gənclik dövründə əldə etdiyimiz bilik və vərdişlərimiz heç də bizim qalan həyatımızda müvəffəqiyyətə zəmanət vermir. İnsanın gənclik dövründə bəzi vərdişləri əldə edir. İnformasiya cəmiyyətində bu vərdişlərə yenidən baxılmalı və onlar genişləndirilməlidir, dəyişdirilməlidir. Bütün bu dəyişiklikləri bir sözlə "biliklərə əsaslanan cəmiyyətə" və ya informasiya cəmiyyətinə, yəni iqtisadiyyatın əsasını qeyri maddi mallar və xidmətlər təşkil edən və bilik və bacarıqların birinci dərəcəli əhəmiyyətə malik olduğu bir cəmiyyətə keçid kimi təsvir etmək olar. Belə cəmiyyətdə insanlar özləri öz talelərinin sahibinə və cəmiyyətin fəal vətəndaşlarına çevrilməlidirlər. Bunu həyata keçirməyin ən yaxşı üsulu təhsil almaq, öyrənməkdir.

Haqqında danışacağımız şagird də elə bizimlə həmfikir olan Quluzadə Həsən Şahin oğludur. Quluzadə Həsən Şahin 2004-cı ildə noyabr ayının 1-də Bərdə şəhərində dünyaya göz açmışdır. Gəlişi ilə ailəsinə əsl xoşbəxtliyin nə demək olduğunu yaşadan Həsən, gündən-günə böyüyərək məktəb illərinə doğru addımlamağa başlayır. O, 2010-cu ildə sentyabr ayının 15-də Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Məktəbə getdiyi ilk gündən Həsən müəllimlərinin sevgisini qazanmağı bacarmışdır. Hazırda Həsən həmin məktəbin 9 b sinifində təhsilini müvəffəqiyyətlə davam etdirir. Dərslərində fəal iştirak edən Həsən dəqiq fənlərə xüsusi rəğbətlə yanaşır, riyaziyyatı çox sevdiyini qeyd edir. Ona bu fənləri sevdirən müəllimlərindən Günel müəllimin və Ruhiyyə müəllimin adlarını çəkir, onlara dərin sevgi və hörmət hissi ilə yanaşdığını bildirir. Elm və texnologiyanın inkişaf etdiyi , yaşayışımızın hər sahəsinə daxil olduğu və istifadəsinə təlabatın atdığı dövrdə Həsən gələcək həyatında orta məktəbi uğurla başa vuraraq Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olmaq istəyir və buna görə durmadan çalışır. O, əlaçı olduğu üçün məktəb rəhbərliyi tərəfindən "Diplom"la təltif olunmuşdur. Dərslərində fəal olan Həsən idmanın şahmat və futbol növü ilə peşəkar səviyyədə məşğul olur. Onun şahmat və futbol sahələrində bir sıra uğurları var. Həsən 2016-cı ildə Bərdə şəhərində keçirilmiş yarışda şahmat üzrə 2-ci yerə çıxmışdır. Həsən asudə vaxtlarını futbol , şahmat oynayaraq, dostları ilə görüşərək əyləncəli vəziyyətə gətirir. İradəsi güclü olan Həsən indidən gələcək hədəfinə çatmaq üçün əzm və iradə ilə çalışır.

Həsənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Quluzadə Şahin Həsən oğlu 1972-ci ildə doğulub, musiqiçidir. Həsən qeyd edir ki, atası gözəl insan və gözəl ailə başçısıdır. Anası Abuzərova Günel Musa qızı 1981-ci ildə doğulub, evdar xanımdır. O, çox mehriban və qayğıkeş insandır. Bacısı Quluzadə Aysel Şahin qızı Bərdə şəhər Zərifə Əliyeva adına məktəb-liseyin 11-ci sinifində təhsil alır. O, ali təhsil almaq üçün hazırlaşır. Aysel oxuduğu məktəbin istedadlı və çalışqan şagirdidir.

Biz də jurnalımız adından Həsənə gələcək həyatında bol-bol uğur, faydalı ömür və gözəl tale arzulayırıq. Qoy ömrü boyu qazandığı uğurlarla ailəsinin,müəllimlərinin başını uca tutsun!

# AYSEL ƏMİROVA






**"Elmi biliklər üst-üstə yığılarkən bəzən ən qiymətliləri altda qalır onları tapıb yenidən üzə çıxarmaq üçün hərdən bütün sistemi dağıdıb yenidən qurmaq lazım gəlir"**

***(Əbu Turxan)***

Elm əvvəlcədən yazılmış kitabdır. Onun qədir və qiyməti hər bir şeydən üstün, hər bir şeydən alidir.Elmin mənbəyi evimizdən, bağçadan başlayır.Elm öyrənmək üçün böyük zəhmət, əmək sərf etmək lazımdır.Elm haqqında onun əhəmiyyəti, tarixi haqqında həm müsəlmanlar, həm də qeyri müsəlmanlar tərəfindən çoxlu məqalələr, kitablar yazılıb. Elm dini nöqteyi-nəzərdən o qədər əhəmiyyətlidir ki, Allahın böyük peyğəmbərlərindən olan Musa ondan ötrü uzun və təhlükəli bir səfərə çıxır. Elm və din -hər ikisi idrak müstəvisində dünya nizamına münasibətdir:elmi düşüncə dünya nizamının ayrı-ayrı lokal təzahürlərini aşkar etmək əzmindən, dini hiss sonsuz əzəli, əbədi bir nizam qarşısında heyrətdən qaynaqlanır. İslama görə elm və bilgi höccət sayılır və hər bir müsəlman öz elminə uyğun hərəkət etməyə borcludur. İslama görə insan daim elmlə məşğul olmalı, yeni bilgilər əldə etməyə çalışmalıdır. Çünki bu onun şəxsiyyət kimi formalaşması üçün vacib faktdır. Növbəti yazının qəhrəmanı Əmirova Aysel Alış qızıdır.

Əmirova Aysel Alış qızı 17 mart 2003-cü ildə Bərdə şəhərində anadan olub. 2009-cu ildə Bərdə şəhər 8 saylı tam orta məktəbinə daxil olub. Bu gün Aysel balamız artıq 10-cu sinifdə oxuyur. Və çətin və məsuliyyətli həyatın astanasında hesab olunur.Bu günə kimi öz bacarıq və çalışqanlığı ilə uğurlu addımlarını atmağı bacaran Aysel məktəbin fəxri şagirdi, dərs əlaçısıdır. Onun sevimli fənləri Azərbaycan dili, fizika, kimya, ən sevimli müəllimi isə Sevinc müəllimdir. Aysel üçün Sevinc müəllim onun üçün çox əziz və dəyərlidir. Aysel balamız həm dərslərində, həm də məktəbdə keçirilən tədbirlərdə fəallığına görə məktəbin ən qabaqcıl, ən nümunəvi sagirdlərindən sayılır. Məhz elə bu səbəbdən də bütün müəllimləri tərəfindən sevilir və gələcəkdə hansı peşəyə yiyələnməsindən asılı olmayaraq müəllimləri onun mükəmməl bir şəxsiyyət olacağına inanırlar. Aysel çox uğurlu bir şagirddir. İndiyə qədər onun bir çox sertifikat, tərifnamə və fəxri fərmanları var ki, bu təltiflər onu məktəbin "Fəxri Şagird" adını almasına səbəb olmuşdur. Onun uğurlarına gəldikcə 30 may 2014-cü ildə Bərdə Rayon Təhsil Şöbəsinin təşkil etdiyi bilik yarışında təhsildə əldə etdiyi nailiyyətlərə və nümunəvi davranışlarına görə "Tərifnamə" ilə, 2014-2015-cı tədris ilində göstərdiyi uğurlarına görə "Fəxri Fərman" la təltif edilmişdir. 1 may 2016-cı ildə isə Bərdə hazırlıq kurslarının təşkil etdiyi sınaq imtahanında ən yüksək nəticə toplayaraq "Sertifikat"la təltif edilmişdir. Artıq gələcəyi haqqında planlarını quran Aysel bildirib ki, ən böyük arzusu



# MƏMMƏDLİ GÜNEL







**"Fitri ağıl hər hansı bir təhsili əvəz edə bilər, ancaq heç bir təhsil fitri ağılı əvəz edə bilməz"**

***(Artur Şopenhauer)***

Bir xalqın bir millətin gələcəyini bilmək və görmək üçün onun gənclərinə baxmaq kifayətdir. Bir xalq öz gələcəyinin parlaq olmasını istəyirsə sahib olduğu gənc nəslin daha gözəl yetişməsi üçün əlindən gələni etməlidir. Xüsusilə də dəyərlər mühitində yetişən milli-mənəvi etik-əxlaqi dəyərlərə sahib olan gənclər bir xalqın parlaq gələcəyinin təminatçısıdırlar.

Müasir gənclik daim axtarışdadır. Buna görə də axtarışda olan gəncliyə müsbət və pozitiv olanı təqdim etmək lazımdır ki, nəticə də pozitiv olsun. Bu mənada gənclərin belə sağlam təfəkkür və əqidədə olması çox vacibdir. Maarifçi əqidəli, vətənpərvər humanist, vicdanlı gənc güclü bir gələcək deməkdir. Hər bir kəs düşünməlidir ki, bir valideyn, bir müəllim, bir tərbiyəçi olaraq uşağı necə tərbiyələndirməli onların qarşısına hansı məqsədləri qoymalı, onlara hansı hədəfləri göstərməlidir. Bu həm cəmiyyət, həm də gənclərimiz üçün çox vacibdir. Müasir dövrümüzdə gənclərin formalaşmasında ailə ilə yanaşı, təhsil ocaqların, eləcə də müəllimlərin rolu əvəzsizdir.

Müsahibəmizin növbəti çalışqan və nümunəvi şagirdlərindən biri də Məmmədli Günel Zöhrab qızıdır. Günel də təhsilinə önəm verən və müəllimlərini qiymətləndirən bacarıqlı məktəblilərdəndir.

Məmmədli Günel Zöhrab qızı 5 iyul 2008-ci ildə Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub. 2014-cü ildə Sabirabad rayon Məlik Məlikov adına Şəhriyar kənd tam orta məktəbə daxil olub və hal-hazırda həmin məktəbin 5"b" sinifində təhsilini davam etdirir. Hər zaman dərslərinə böyük diqqətlə yanaşan Günelin sevimli fənləri Azərbaycan dili və riyaziyyatdır. Onun sevimli müəllimləri Ramazan, Pərvin və Həminə adlı müəllimləridir ki, Günel onlara xüsusi hörmət edərək zəhmətlərini yüksək qiymətləndirir. Çünki müəllimləri vicdanlı, qayğıkeş eyni zamanda öz ixtisasları üzrə peşəkardılar. Asudə vaxtlarını bədii kitablar oxumaqla, rəsm çəkməklə , hətta ev işlərində anasına kömək etməklə keçirdiyini bildirib. Günelin incəsənətə böyük marağı var. Səbəbsiz deyil ki, bu maraq həm də onun sevimli məşğuliyyətinə çevrilib. Belə ki, Günelin rəsm çəkmək qabiliyyəti, müxtəlif əşyalardan maraqlı əl işləri düzəltmək bacarığı var. Həmçinin Günel siniflərinin əlaçılarından olmaqla hər zaman dərslərində aktivliyi ilə seçilir. Onun bu yaşına qədər əldə etdiyi uğurları da məhz təhsili ilə bağlıdır. O, təkcə dərslərindən aldığı yüksək qiymətlərlə qane olmayıb bir çox sınaq imtahanlarında da iştirak edərək öz biliyini test yolu ilə yoxlayıb. Onunla apardığımız kiçik müsahibədən aydın oldu ki, Günelin ən böyük uğuru "Avropa" kurslarının təşkil etdiyi sınaq imtahanında topladığı 320 ballıq ən yüksək nəticə olmuşdur. O, bu göstərici ilə həmyaşıdları arasında birinci yerə çıxmışdır. Gələcək peşəsini də indidən seçən və məqsədinə çatmaq üçün daim əzmlə çalışan Günel bələdiyyə sədri olmaq istəyir. Onda bu sahəyə marağını olması yerli idarəetmə orqanların cəmiyyətin siyasi və iqtisadi həyatında rolu ilə əlaqədardır. Günelin uğurlarında hər zaman onun yanında olan və gələcək arzusuna çatmasında daim ona dəstək olan ailəsidir. Evin tək övladı olan Günelin ailəsi 2 nəfərdən ibarətdir.

Atası Məmmədov Zöhrab Əzizağa oğlu 1977-ci ildə Sabirabad rayonunda anadan olub. Hal-hazırda fərdi təsərrüfatçı olan Zöhrab bəy nümunəvi ailə başçısıdır.

Anası Məmmədova Gülşən Mirzağa qızı 1978-ci ildə Sabirabad rayonunda anadan olub. Hal-hazırda evdar xanımdır.

Redaksiyamız adından biz də Günel balamıza gələcək həyatında uğurlar, bol-bol nailiyyətlər arzulayaraq indidən xəyal dünyasında düzüb-qoşduğu bütün istəklərinə çatmasını diləyirik.

# QASIMOVA GÜLBƏNİZ











**”Savadlı adam mütailə etmirsə təkrar savadsızlığa məhkumdur. İnsan gərək bütün ömrü boyu maariflənsin”**
***(A.V.Lunaçevski)***

2009-cu il 19 iyun tarixli” Təhsil haqqında qanunda “ göstərilir ki, vətəndaşların Azərbaycan Respublikasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı- ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsində başlıca rol oynayır. Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir. Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından təhsil alanların və təhsil verənlərin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

Azərbaycan Respublikasında təhsilin əsas məqsədi insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Vətənpərvərlik ruhunda böyüyən, müstəqil, yaradıcı düşünmə qabiliyyətinə malik olan qəhrəmanlarımızdan biri də Qasımova Gülbəniz Rüstəm qızıdır.

Qasımova Gülbəniz Rüstəm qızı 21 yanvar 2008-ci ildə Bərdə rayon Həsənqaya kəndində anadan olub. 2013-cü ildə Bərdə rayon İnteqrasiya təlimli internat tipli gimnaziya məktəbinə daxil olub və hazırda həmin məktəbin 5”b” sinifində təhsilini davam etdirir. Gülbəniz sevimli fənləri olaraq Azərbaycan dili, musiqi və ingilis dili fənlərinin adını qeyd edir. Sevimli müəllimləri isə Çinarə, Samirə və İradə adlı müəllimləridir. Gülbəniz asudə vaxtlarını pianinoda ifa etməklə, kitab oxumaqla keçirir. Gələcək peşəsini də indidən seçən istedadlı balamızın arzusu hüquq ixtisası üzrə ali təhsil alıb bir güclü hüquq mütəxəssisi kimi Daxili İşlər Nazirliyində işləməkdir. Azyaşlı olduğuna baxmayaraq Gülbəniz ötən il tədris ilini uğurla başa vurduğuna və əlaçı olması münasibəti ilə oxuduğu məktəb rəhbərliyi tərəfindən ”Fəxri Fərman” və ”Təşəkkürnamə” ilə təltif edilmişdir. Gülbənizin mehriban ailəsi 3 nəfərdən ibarətdir.

Atası Qasımov Rüstəm Məhəmməd oğlu 17 noyabr 1978-ci ildə Bərdə rayonunun Həsənqaya kəndində anadan olub. Hal-hazırda Bərdə rayonunda din xadimi kimi çalışır. O, övladlarına qarşı çox qayğıkeş və mehribandır.

Anası Qasımova Şərafət Musa qızı 13 avqust 1982-ci ildə Bərdə rayonunun Həsənqaya kəndində anadan olub. Ali təhsillidir. İbtidai sinif müəllimliyini bitirib. Hazırda evdar xanımdır. Gülbəniz üçün anası dünyanın ən xeyirxah insanıdır.

Qardaşı Məhəmmədli İsmayıl Rüstəm oğlu 13 avqust 2005-ci ildə Bərdə rayonunun Həsənqaya kəndində anadan olub. Hazırda 7-ci sinifdə oxuyur. Qardaşı da çox savadlı və uğurları olan bir şagirddir.

Qasımova Rehan adında bir baçısı var, 3-cü sinif şagirdidir. Onun bir “Fəxri Fərman”ı var.

Redaksiyamız adından Gülbəniz balamıza bol-bol uğurlar, nailiyyətlər arzulayırıq. Qoy öyrəndiyi elm və bilik hər zaman onun həyat yolunda yaşıl işıq yandırsın!









riyaziyyat müəllimi olmaqdır. O riyaziyyatı bütün elmlərin şahı adlandıraraq bildirib ki, onda bu peşəyə sevgi sevimli müəllimi olan Sevinc müəllimdən keçib. Hətta Aysel gələcəkdə onun kimi peşəkar və savadlı müəllim olacağını bildirib. Seçdiyi peşənin məsuliyyətini və çətinliyini dərk edən qızımız dərslərinə məsuliyyətlə yanaşır, oxumağın onun gələcəyi üçün çox vacib olduğunu dərk edir. Ayselin uğura doğru addımlamasında ona daim dəstək olan valideynləri onun hər uğuruna sevinir və inanırlar ki, Aysel onların başını hər zaman uca edəcək, onları sevindirəcək. Ayselin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Əmirov Alış 1 yanvar 1966-cı ildə Bərdə şəhərində anadan olub. Ali təhsillidir. Hal-hazırda özəl şirkətlərin birində anbar müdiri işləyir.

Anası Süleymanova Gülzar 25 fevral 1970-ci ildə Bərdə şəhərində anadan olub. Ali təhsillidir. Gözəl və qayğıkeş ana olmaqla yanaşı bacarıqlı evdar xanımdır.

Qardaşı Əmirli Möhsüm Alış oğlu 16 may 2004-cü ildə Bərdə şəhərində anadan olub. Hazırda Bərdə şəhəri 8 saylı məktəbin 10-cu sinif şagirdidir.

Bacısı Əmirova Nərgiz Alış qızı 24 iyul 2001-ci ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda Gəncə Dövlət Universitetinin tarix müəllimi fakültəsində təhsilini davam etdirir. Bacıların hər ikisi qardaşa yaxşı örnək, ibrətdir.

Biz də öz jurnal heyətimiz adından Aysel balamıza uğurlar, xoş tale və faydalı ömür payı arzulayırıq. Uğur və nailiyyətləri ilə daima valideynlərinin başını uca eləsin!









# Bəgalıyev Rahil



**”Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir”**

**(Aristotel)**

Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir deyib böyük fransız mütəfəkkiri Vüqtor Hüqo. Həmin təhsil ocaqlarının illərlə yetişdirdiyi nəsillər isə məxus olduğu ölkənin, dövlətin əsas sərvətidir desək yanılmarıq. Çünki əsas diqqəti, qayğısı insan kapitalına yönələn ölkələri tarix boyu “məğlub” etmək çətin olub. Əksinə zamanla həmin insan kapitalının qurub-yaratması ilə ucalaraq dünyada güclü iqtisadiyyat və siyasətə sahiblənib. Odur ki, elm və təhsillə başlanan uğurlu gələcəyə elə özülündən sağlam dəstək vermək və özündə güclü inam formalaşdırmaq lazımdır. Elm inkişaf edir. Elmlə bərabər insan da inkişaf etməli və onun sayəsində uğurlar əldə etməlidir.Çünki elm bütün qapıların açarıdır. Elmsiz insan meyvəsiz ağaca bənzəyir. Biz Azərbaycan xalqının övladları olaraq çalışmalı, oxumalı, həyatdan hər şey öyrənməliyik. Bu gün elmi öyrənməyə calışan, istedadlı və gələcəyini təhsilə bağlıyan calışqan, istedadlı və idmanı sevən şagirdlərimizdən biri olan Rahil Bəgalıyevdən danışacağıq. O, öz elmi ilə xalqına fayda vermək və millətin savadlanmasında öz xidmətlərini qurmaq istəyir.

Bəgalıyev Rahil Rafiq oğlu 28 oktyabr 2007-ci ildə Biləsuvar şəhərində dünyaya göz açmışdır. O, 2014-cü ildə Nəriman Nərimanov adına 6 saylı tam orta məktəbin 1-ci sinifinə getmişdir. Hal- hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Rahilin ən sevimli müəllimi Rəhimova Dilarə, ən çox sevdiyi fənn isə fiziki tərbiyə dərsidir. Bu da səbəbsiz deyil, çünki onun idmana, xüsusilə boksa marağı var. Rahil boks üzrə müxtəlif yarışlarda iştirak edərək bir neçə dəfə 2-ci və 3-cü yerə çıxaraq “Diplom”la təltif edilmişdir. Boş vaxtlarında idmanla məşğul olmağı daha çox sevir. Gələcəkdə ən böyük istəyi Fövqaladə hallarda yanğın söndürən işləməkdir. Yəni xilasedici olmaqdır əsas niyyəti. Onun zəhmətkeş ailəsi də çalışır ki, Rahillə yanaşı digər iki qardaşının da həyatı uğurlu, xoşbəxt və firəvan olsun.

Ailəsi 5 nəfərdən ibarətdir. 1981-ci il təvvəllüdlü atası Bəgalıyev Rafiq usta işləyir. Anası Naibə Bəgalıyeva evdar xanımdır. Qardaşları Bəgalıyev Həsən 8-ci sinif və Bəgalıyev Hüseyn 2-ci sinif şagirdləridir. Qardaşlar çalışır ki, birbirlərinə kömək etsin, bir-birinə arxa-dayaq olsun.

Redaksiyamız adında Rahili təbrik edir. Ona gələcək həyatında uğurlar arzulayırıq. Hər zaman ata- ananın, müəllimlərinin fəxri olasan. Öyrəndiyin elm, bilik bütün həyatı boyunca özünə və cəmiyyətə faydalı olsun.



# NƏZRİN NOVRUZLU








**”Təhsilin kökləri acı meyvələri şirindir”**

***(Aristotel)***

Sosial-iqtisadi həyatın müasirləşməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımı şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevrilir. Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır.Təhsilin normativ- hüquqi bazası təkmilləşdirilmiş maddi texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir.

Sürətlə modernləşən Azərbaycan Respublikasının təhsil sisteminin insan kapitalının inkişafı çağrışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün, təhsili idarəetmə sisteminin yenidən qurulması bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

Bu yazını gələcəkdə müəllim olmaq üçün əzmlə çalışan, peşəkar müəllim olmaq üçün gecə-gündüz öyrənən Novruzlu Nəzrin Rəfail qızına həsr edirik.

Novruzlu Nəzrin Rəfail qızı 6 oktyabr 2004-cü ildə Bərdə rayonunun Kətəlparaq kəndində anadan olub. 2010-cu ildə Bərdə rayon 8 saylı tam orta məktəbinə daxil olub. Hal-hazırda həmin məktəbin 9b-cu sinifində təhsilini davam etdirir. Nümunəvi və çalışqan şagirdimizin sevimli fənni riyaziyyat, ən çox sevdiyi və hörmət bəslədiyi müəllimi isə Aygün müəllimdir. Nərmin boş vaxtlarını bədii kitablar oxumaqla,riyaziyyatdan müəyyən çalışmalar, hesablamalar etməklə keçirdiyini bildirib. Gələcək peşəsini də indidən seçən və ona nail olmaq üçün bütün var qüvvəsini elmə həsr edən Nəzrinin ən böyük arzusu yüksək bal toplayıb ali təhsil alaraq riyaziyyat müəllimi olmaqdır. O, bildirib ki, peşəkar müəllim olmaq üçün mütləq qarşına məqsəd qoymalısan və o məqsədə çatmaq üçün daim çalışmalısan. Nəzrinin istər təhsil sahəsi olsun, istərsə də başqa sahələr olsun uğurları çox olmuşdur. Onun ən böyük uğuru 1saylı rəqs məktəbindən rəqs üzrə aldığı kubok olmuşdur ki, bu da onun necə bir istedadlı qız olduğunu təsdiqləyir.

Nəzrini ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məhərrəmov Rəfail Camal oğlu 1959-cu ildə Bərdə rayonunda anadan olub və hal-hazırda xırda ticarətlə məşğuldur.

Anası Məhərrəmova Sabirə Qara qızı 1960-cı ildə Bərdə rayonunun Kətəlparaq kəndində anadan olub və hal-hazırda evdar xanımdır. Nəzrinin gündəlik qayğıları və dərsləri ilə məşğul olur.

Bacısı Məhərrəmova Fidan Rəfail qızı 10-cu sinif şagirdidir. Hal-hazırda 4-cü qrup üzrə hazırlaşaraq Tibb Universitetinə daxil olmaq istəyir. Həkim olmaq onun ən böyük arzusudur.

Biz də öz adımızdan Nəzrin balamıza gələcək həyatında nailiyyətlər, müvəffəqiyyətlər arzulayırıq. Uğurları bol, həyatı parlaq olsun. Daim öyrəndikləri və mənimsədikləri onun həyat yoluna işıq salsın!





# MƏMMƏDOVA LEYLA





**"Elmin hüdudları üfiqi xatırladır: nə qədər çox yaxınlaşırsana o qədər çox uzağa çəkilir"**

***(Pyer Büast)***

Elm ailədən nəsildən başlayır. İnsan anadan olduğu gündən ailədə aldığı tərbiyə gördüyü ədəb-ərkan onu gələcəyə aparan ən uğurlu yoldur. Elm almaq üçün isə üz tutduğumuz məktəb bizim ikinci evimiz sayılır. Oxumaq, biliyə yiyələnmək üçün məktəb insanın həyatında vacib rol oynayır.Məktəbin təmirli olması , müəllimlərin peşəkar və savadlı olmaları şagirdlərin dərsə həvəslə gəlmələrinə, onların daha yaxşı oxumalarına təsir göstərir.

İnsana başucalığı gətirən ən vacib keyfiyyətlərdən biri onun təhsilli olmasıdır. Hər bir xalq özünün gələcəyə olan ümidlərini ilk növbədə təhsillə bağlayır. Təhsil hər bir gənc nəslin yetişdirilməsində ən başlıca məsələdir. Dünyanın istənilən ölkəsində təhsil sistemi hər bir gəncin, cəmiyyətin həyatında ölkənin sosial-iqtisadi inkişafında aparıcı rol oynamasına gətirib çıxarır.Bu bir həqiqətdir ki, müasir insanlar daim axtarışdadır. Buna görə də axtarışda olan insanlara müsbət olanı, pozitiv olanı təqdim etmək lazımdır ki, nəticə də müsbət və pozitiv olsun.

Növbəti məqaləmizin müsahibi ağıllı və tərbiyəli olması ilə valideynlərinin, müəllimlərinin diqqətini özünə cəlb edən Məmmədova Leyla Mobil qızıdır.

Məmmədova Leyla Mobil qızı 18 aprel 2008-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. 2014-cü ildə Bərdə rayonu Xəsili kənd tam orta məktəbinə daxil olub. Hal-hazırda həmin məktəbdə 5-ci sinifdə oxuyaraq öz təhsilini davam etdirir. Nümunəvi şagirdimiz olan Leyla ilk günlərdən müəllimlərinin və dostlarının sevgisini qazanmışdır. Əlaçı qızımız yaxşı oxuduğuna görə "İlin şagirdi" adına layiq görülmüşdür. Bütün dərslərinə hazırlıqlı və məsuliyyətlə yanaşan Leyla balamız sevimli fənləri olaraq Azərbaycan dili və tarix fənlərinin adını və sevimli müəllimləri olaraq isə Ramil və Venera adlı müəllimlərinin adını qeyd edib. Və həmçinin bildirib ki, Venera müəllim onun ən sevimli, ən dəyərli müəllimidir. O, çox qayğıkeş və peşəkar müəllimdir. Leyla balamız artıq öz gələcək istiqamətini , yolunu da seçib. Onun gələcəkdə arzusu müəllimlik sənətinə yiyələnmək, bu müqəddəs sənət üzrə biliklərini daha da artırmaqdır. Pedaqoq sənətinin çox çətin və məsuliyyətli bir sənət olduğunu dərk edən Leyla gələcəkdə bu sahə üzrə öz tövfələrini vermək ,insanları maarifləndirmək istəyir. O, vurğulayıb ki, müəllimlik həm də yaradıcı işdir, çünki o hazır göstərişlərlə, reseptlərlə işləyə bilməz. Savadlı müəllim konkret halda vəziyyəti düzgün təhlil edib uğurlu çıxış yolu tapmaqla məsələlərə müstəqil və yaradıcı yanaşmalı və güclü psixoloq olmalıdır.Bunun üçün isə ilk növbədə pedoqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə yiyələnmək vacibdir. Leyla düşünür ki, bu sahədə yaxşı mütəxəssis olmaqla xalqına, vətəninə daha yaxşı fayda verə bilər. Leyla balamız asudə vaxtlarını dərs oxumaqla və maraqlı məlumatlar tapmaqla və araşdırmaqla keçirir. Leylanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Mobil Mətləb oğlu 15 dekabr 1980-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. Orta təhsillidir. Hal-hazırda şəxsi biznesə malik sahibkardır.

Anası Məmmədova Günel İsmayıl qızı 6 sentyabr 1987-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub, evdar xanımdır.

Leylanın 2 qardaşı var. Məmmədov Özcan Mobil oğlu 6 noyabr 2003-cü ildə anadan olub. Hazırda 9-cu sinifdə oxuyur. Məmmədov Orxan Mobil oğlu 22 oktyabr 2006-cı ildə anadan olub, 6-cı sinif şagirdidir.

Leylanın irəliliyə doğru addımladığı yolda ona saysız-hesabsız uğurlar, nailiyyətlər diləyirik. Ömrün faydalı, həyat yolun nurlu olsun!






# Yusif Babayev





**"Kim özündən çox bilənlə mübahisə etsə ki, biliyi meydana çıxsın, biliksizliyi ortaya çıxar"**

***(Sədi Şirazi)***

Təhsilə yalnız milli və ya yalnız ümumbəşəri hadisə kimi yanaşmaq olmaz. Təhsilin mahiyyətindən irəli gələn və bütün dövrlər və ölkələr üçün qorunub saxlanan əsas prinsiplərlə yanaşı, konkret dövrün, konkret ictimai situasiyanın və konkret milli gerçəkliyin, milli düşüncə tərzinin xüsusiyyətləri də mütləq nəzərə alınmalıdır. Təhsil özü sosial institut olmaqla yanaşı, həm də və daha çox dərəcədə ictimai şüurun inkişafını təmin etdiyi, onun strukturunun özünəməxsusluğunu qoruyub saxladığı üçün ictimai həyatın və milli məfkurənin ayrılmaz tərkib hissəsidir. Təhsil həm də milli ruhun inkişafını təmin edən mühüm vasitələrdən biridir.

Jurnalımızın bu sayında istedadlı və qabaqcıl şagirdlərdən olan Babayev Yusif haqqında qısa da olsa məlumat verməyə çalışacağıq. Babayev Yusif Xaqani oğlu 2011-ci ildə avqust ayının 8-də Bərdə rayon Dəymədağıldı kəndində dünyaya göz açmışdır. Böyüməyə , məktəbə getməyə can atan Yusif nəhayət ki, böyüyərək 2017-ci ildə sentyabr ayının 15-də Bərdə şəhər 8 saylı məktəbin 1-ci sinifinə getməklə təhsil həyatına qədəm qoymuşdur. Hazırda Yusif sözügedən məktəbin 2c sinifində təhsilini davam etdirir. Məktəbə başladığı az vaxt olmasına baxmayaraq Yusif qısa vaxt ərzində məktəb rəhbərliyinin və müəllimlərinin sevgisini və hörmətini qazanmışdır. Hər zaman dərslərinə qarşı diqqət və məsuliyyətlə yanaşan Yusif hesablamağı, misallar həll etməyi ,məntiqi düşünməyi çox sevir. Buna görə də onun ən çox sevdiyi fənn riyaziyyat fənnidir. Yusifin qeyri-adi məntiqi misallar həll etmə qabiliyyəti var ki, bu onu yaşıdlarından fərqləndirir. Ən sevdiyi müəllim isə qayğıkeş və mehriban Rüxsarə müəllimdir. Yusif qeyd edir ki, Rüxsarə müəllim onların öyrənməsi üçün daima çalışır, əlindən gələni əsirgəmir. Dərslərinə hər zaman hazırlıqlı olan Yusif məktəb üzrə keçirilmiş sınaq imtahalarında 1-ci yerə yerə çıxdığına görə, həmçinin, dərslərini yaxşı oxuduğuna görə Məktəb rəhbərliyi tərəfindən "Təltifnamələr"lə mükafatlandırılmışdır. Asudə vaxtlarını da Yusif məntiqi testlər etməklə və kitab oxumaqla dəyərləndirir. O, az yaşlı olmasına baxmayaraq mütaliənin önəmini dərk edir və kitab oxumanın onun nitqini,dünyagörüşünü zənginləşdirdiyini başa düşür. Gələcəkdə Yusifin ən böyük arzusu orta məktəbi bitirdikdən sonra Polis Akademiyasına daxil olub, xalqın, millətin mənəviyyatını, canını və mülkiyyətini qoruyan şərəfli polis olmaqdır.

Yusifin ailəsi 4 nəfərdən ibarətdir. Atası Babayev Xaqani Rza oğlu 1989-cu ildə doğulmuşdur, ticarətlə məşğul olur. Anası Babayeva Bahar Arif qızı 1991-ci ildə doğulub, evdar xanımdır. Yusif anasını və atasını çox sevdiyini bildirir. Yusifin Ömər adında 5 yaşlı kiçik,şirin qardaşı var. Yusif qardaşını çox sevir,balaca olduğu üçün onu qoruyur və qayğısına qalır.

Biz də öz "Çağdaş Təhsil " jurnalımızın redaksiyası adından Yusifi təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, uğur və müvəffəqiyyətləri ilə daim ailəsini və valideynlərini sevindirsin, daim başlarını uca tutsun!





# BEHBUDOV ALİM








**"Elm bilik sənətkara ağlın gözləri ilə görünən aləmin üfiqlərini açır"**
***(Xudu Məmmədov)***

Məktəb xalqın elm mənbəyi olan mənəvi beşiyidir. Məktəb sadəcə insanın elm qazandığı yer deyil ,həmçinin tərbiyəli ,mədəni ,dünyagörüşü olan insan kimi yetişdiyi məkandır. Məktəbdə təkcə yazıb oxumağı deyil, eyni zamanda vətənə, xalqa sevgi öyrədilir. Məktəbli ,bilikli adamlar hər zaman səviyyəsi, davranışı, mədəniyyəti ilə seçilməklə özünü həyatda necə aparmaq lazım olduğunu bilirlər. Məktəb hər bir şagird üçün innovasiya, yaradıcılıq, təfəkkürün inkişafına şərait yaradan təhlükəsiz şəraitdə hərtərəfli və dinamik təhsil imkanları təmin edir. Hər bir dövlət üçün məktəb həlledici rola malikdir. Məktəb elmlərə daha dərindən yiyələnmək üçün böyük rola malikdir.

Müsahibəmizin növbəti qəhrəmanı Behbudov Alim Vüsal oğludur.

Behbudov Alim Vüsal oğlu 2 avqust 2008-ci ildə Bərdə şəhərində anadan olub. 2014-cü ildə Bərdə şəhər 8 saylı tam orta məktəbə daxil olub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbin ağıllı, məsuliyyətli, çalışqan şagirdi olan Alimin sevimli fənləri Azərbaycan dili və riyaziyyatdır. Alim məntiqini daha da təkmilləşdirmək üçün məntiq kurslarına da getdiyini bildirib. Əlaçı olduğunu deyən Alim tez-tez fənlər üzrə kurslara və sınaq imtahanlarına gedir. Hətta sınaqlardan yüksək bal topladığına görə "Sertifikat"la təltif edilmişdir. Asudə vaxtlarını dərs oxumaqla ,şəkil çəkməklə, eyni zamanda kompüterdə saytlar yaratmaqla keçirir. Alimin uğurları təkcə təhsil sahəsindən əldə etdiyi uğurlarla yekunlaşmır, onun idman sahəsində də nailiyyətləri saysız-hesabsızdır. Bərdə ABE komandasında futbol üzrə qabaqcıl yerlərdən birini tutaraq "Sertifikat"la təltif edilmişdir.Alimin pərəstişkarı olduğu futbol komandası "Real Madrid", sevdiyi futbolçu isə Kristina Ronaldodur. Riyaziyyata marağı sonsuz olan Alim gələcəkdə də bu sahəni daha da təkmilləşdirmək və peşəkar riyaziyyatçı olmaq istəyir. Alimin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Behbudov Vüsal Knyaz oğlu 26 iyun 1982-ci ildə anadan Bərdə şəhərində anadan olub. Hal-hazırda yolların mühafizə xidmətində işləyir.

Anası Behbudova Aynur Şərməddin qızı 1982-ci ildə anadan olub. Hal-hazırda ibtidai sinif müəllimidir.

Alimin 2 bacısı var. Behbudova Vüsalə Vüsal qızı 1 yanvar 2005-ci ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda 8-ci sinifdə oxuyur.

Behbudova Nailə Vüsal qızı 17 mart 2006-cı ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda 8-ci sinifdə oxuyur.

Redaksiyamız adından Alim balamıza uğurlar arzulayırıq. Gələcək planlarında, həyat yolunda nailiyyətlər diləyirik!



# MƏMMƏDOV ORXAN









**"Elm alın yazısını qəbul etmədi amma genetik proqram adı altında onu özü kəşf edir"**
***(Tur Xander)***

Dahi yazıçılarımız bildirib ki, elm bir nur cəhalət isə bir zülümdür. Elə bir dövrdə yaşayırıq ki, hər zaman hər yerdə savadlı kadra ehtiyac var.Savadlı və peşəkar kadrların yetişdirilməsində başlıca rolu təhsil ocaqları oynayır. Hər bir təhsil ocağı qarşıya qoyulan hədəflərə çatmaq ölkənin iqtisadi, mədəni və elmi potensialınının gücləndirilməsində əvəzsiz töhfələrini vermişdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, təhsil ocaqları və onların yetişdirdikləri peşəkar insanlar ölkənin inkişafında əvəzsiz rol oynayırlar.Hər bir təhsil ocağının yetişdirdiyi mütəxəssislər əldə etdikləri bilik, bacarıq baxımından fərqlənsələr də onları bir araya gətirən yeganə məqsəd malik olduqları potensial imkanlardan ölkənin gələcəyi üçün maksimum dərəcədə bəhrələnməkdir.Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən azad, müstəqil mətbuatın inkişafı istiqamətində atılan addımları geniş şəkildə şərh etməyə ehtiyac yoxdur. Reallıq göz qabağındadır, biz də "Çağdaş Təhsil" jurnalının kollektivi olaraq öz dərgimizdə ancaq ölkənin istedadlı, xüsusi bilik və bacarığa malik şagird və ziyalılarını tanıtmaq və təbliğ etməklə məşğuluq. Haqqında qısa da olsa məlumat verəcəyimiz jurnalımızın növbəti qəhrəmanlarından biri də Məmmədov Orxandır.

Məmmədov Orxan Mobil oğlu 22 oktyabr 2006-cı ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. 2013-cü ildə Bərdə rayonu Xəsili kənd tam orta məktəbinə daxil olub və hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Orxan demək olar ki, məktəbin ən nümunəvi və çalışqan şagirdlərindən biridir. Dərslərinə məsuliyyətli şəkildə yanaşan Orxan sevimli fənləri olaraq Azərbaycan dili, riyaziyyat və coğrafiya fənlərinin adını qeyd edir. Sevimli müəllimləri olaraq isə Aytac, Ülviyyə və Səba adlı müəllimlərin adını qeyd etməklə öz sevgi və sağısını bildirir. Müəllimlərinin şagirdlərə olan nəvazişi və fədakarlığı, peşəkarlığı Orxanın elmə aid marağını daha da artırmışdı. Orxan bildirib ki, riyaziyyat və ingilis dili fənlərindən biliyini artırmaq üçün dərsdən əlavə məşğələlərə gedir. Əlaçı şagirdimiz bildirib ki ,dərslərimdən aldığım ən yüksək qiymətlər mənim ən böyük uğurumdur, yəni əlaçıdır. Boş vaxtlarını səmərəli qiymətləndirərək əlavə müxtəlif sahələrə aid məlumatlar topladığını və dərsləri ilə məşğul olduğunu vurğulayıb. Orxan artıq öz gələcək peşəsini də indidən seçib və bildirib ki, arzusu ali tibbi təhsil alıb həkim olmaq və bu sənətin sirlərinə dərindən yiyələnməkdir. Həkimlik sənətinin çox humanist və məsuliyyətli olduğunu insanların səhhətinin, sağlamlığının qorunması, saglamlığı ilə əlaqədar əziyyət çəkənlərə köməklik etməkdən ibarət olduğunu qeyd edərək özünün də bu şərəfli missiyanı yerinə yetirmək əzmində olduğunu bildirir. Orxanın ailəsi də onun kimi düşünür və övladlarının gələcəyi naminə hər bir əziyyətə qatlaşamağa hazırdır. Orxangil ailədə 4 nəfərdirlər.

Atası Məmmədov Mobil Mətləb oğlu 15 dekabr 1980-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. O, şəxsi biznesinə malik sahibkardır. Hər bir zəhməti digər valideynlər kimi övladları üçün edir və onların heç nədən əziyyət çəkməməsi üçün çalışır.

Anası Məmmədova Günel İsmayıl qızı 6 sentyabr 1987-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. Hazırda evdar xanımdır.Övladlarının təlim-tərbiyəsi, təhsili ilə məşğul olur.

Qardaşı Məmmədov Özcan Mobil oğlu 6 noyabr 2003-cü ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. Hazırda 9-cu sinifdə oxuyur.

Bacısı Məmmədova Leyla Mobil qızı 18 aprel 2008-ci ildə Bərdə rayonunun Xəsili kəndində anadan olub. Hazırda 5-ci sinifdə oxuyur.

Biz də öz adımızdan Orxan balamıza uğurlar arzulayırıq.Hər zaman ailəsinin ,müəllimlərinin, ölkəsinin başını uca eləsin. İnanırıq ki, bu belə də olacaq.

# MƏMMƏDLİ TÜRKANƏ





**”Alim düzgün cavabları verən yox düzgün sualları qoyandır”**

**(Levi-Stross)**

Girişi Konfutsinin müdrik kəlamı ilə başlamaq istəyirəm.” Elm bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi ,hətta fiziki iztirabı necə qocaldığını belə unutduran yeganə vasitədir.”

Elm yarandığı gündən insanın fəaliyyəti ilə qırılmaz sürətdə əlaqədar olmuşdur.Elm insanın yaradıcı ağılı və sağlam düşüncəli xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir. Elm yeni biliklərin əldə edilməsidir. Elm haqqın, gerçəkliyin axtarılması yolunda fəaliyyətdir.Elm dünyanı öyrənməklə həm bildiklərimizi, həm də bilmədiklərimizi bildirmək üçün ən yaxşı vasitədir.Elm insanın dünyagörüşünün yaranıb inkişaf etməsinə, hərtərəfli şərait yaratmaqla, ictimai tələbatın ödənilməsinə xidmət edir. Elm bacarıq ,qabiliyyət olmaqla insanın beynində dəyişiklik aparan bir inqilabdır. Elm təbiət aləmini insanlara uyğunlaşdırmaqla insana qüdrət bəxş edir.

Məqaləmizin növbəti müsahibi öz istedadı, bacarığı ilə həmyaşıdlarından fərqlənən Məmmədli Türkanə Cahangir qızıdır.

Məmmədli Türkanə Cahangir qızı 14 avqust 2006-cı ildə Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub. 2013-cü ildə Məlik Məlikov adına Şəhriyar kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 6”a” sinifində təhsilini davam etdirir. Nümunəvi şagird olan Türkanə məktəbə qədəm qoyduğu ilk gündən başlayaraq daim müəllimlərinin və dostlarının sevgisini qazanmışdır. 6-cı sinifə qədər dərslərindən yüksək qiymət alan Türkanə məktəbdə “Fəxri şagird” adını almışdır. Türkanənin ən sevimli fənni həyat bilgisi fənni, ən sevimli müəllimləri Qənirə və Pərvin adlı müəllimlərdir. Dərslərində əlaçı olması ilə yanaşı əlavə məktəb tədbirlərində fəal iştirak edib şeirlər oxumaq kimi xüsusi qabiliyyətə malikdir. Asudə vaxtlarını maraqlı kitablar oxumaqla , dostları ilə vaxt keçirməklə və hətta toxuculuqla məşğul olduğunu bildirib. Onun gözəl əl qabiliyyəti var. Artıq gələcək peşəsini də indidən seçən Türkanə balamız ibtidai sinif müəllimi olmaq istəyir. O bildirib ki, əsl müəllim akademik, ünsiyyət ,təşkilatçılıq kimi xüsusiyyətlərə malik olmalıdır. Çünki o ən qiymətli kapital olan insanlarla işləyir bu işdə də isə səhvə yol vermək qeyri-mümkündür. Türkanənin ailəsi 4 nəfərdən ibarətdir.

Zəhmətkeş və qayğıkeş ata olan Məmmədov Cahangir Əzizağa oğlu 1979-cu ildə Sabirabad rayonunda anadan olub. Hal-hazırda usta işləyir.

Təbiətin ən gözəl möcüzəsi, misli bərabəri olmayan yeganə varlığı olan anası Cavadova Elnarə Qulam qızı 1979-cu ildə Sabirabad rayonunda anadan olub. Orta təhsillidir. Hal-hazırda evdar xanımdır.

Qardaşı Məmmədli Fəqan Cahangir oğlu 2010-cu ildə Sabirabad rayonunda anadan olub. Hal-hazırda 3-cü sinifdə oxuyur.

Bacısı Məmmədli Pərvanə Cahangir qızı hal-hazırda 6-cı sinifdə oxuyur.

Biz də öz kollektivimiz adından Türkanə balamıza uğurlar arzulayırıq. İnanırıq ki, gələcəyin savadlı müəllimi olmaqla müəllimlərinin və ailəsinin başını hər zaman uca edəcək.





# BEHBUDOVA NAİLƏ







**”Hər bir kitab yazıldığı mövzu barəsində sizə tamlığı ilə kömək edəcək bir enerjiyə sahibdir”**

***(Rövşən Abdullaoğlu)***

Hər şeydən öncə kitab bilik qazanmaq üçün ,elm əldə etmək üçün, müxtəlif ideyalara sahib olmaq üçün, dünyagörüşümüzü zənginləşdirmək üçün ən yaxşı vasitədir. Hər kəsə məlumdur ki, dövrümüz informasiya əsridir. Və bu informasiyanın hər bir insan üçün önəmi çox böyükdür.Zaman keçdikcə dünyanı dərk etməyə başladıqca kitabların nə qədər böyük gücə sahib olduqlarını anlamış oluruq. Kitab haqqında çox mənalı kəlam və aforizmlər var. Hamısında kitabın dəyər və hikməti öz əksini tapır.

**Bu dünyanın hər sirrini**
**Bizə deyir bu kitablar**
**Ömrümüzün yollarına**
**Nur çiləyir bu kitablar**

Hər kitabı da deyil, insana lazımlı və gərəkli kitabları oxumaqda fayda var. Düzgün kitab oxumaqla təfəkkür inkişaf edir, düşünmək və analiz etmək bacarığı artır, dünyagörüş artır. Kitab oxumaqla hansısa bir obraz qismində özünə ideal tapa bilirsən, həyatda yaşamağa və yaşatmağa səbəb görürsən. Kitab insana motivasiya verir, ruhlandırır daha müsbət nəticələr əldə etməyə imkan şərait yaradır. Kitabdan ayrı düşməmək ümüdilə “Çağdaş Təhsil “jurnalımızın növbəti qəhrəmanı Behbudova Nailə Vüsal qızı haqqında bu yazıda məlumat verək. O, 17 mart 2006-cı ildə ölkəmizin qədim və tarixi guşələrindən biri olan Bərdə şəhərində anadan olub. 2012-ci ildə Bərdə şəhər 8 saylı tam orta məktəbinə daxil olub. Hal-hazırda həmin məktəbin 8”a” sinifində oxuyur. Demək olar ki, bütün fənlərindən yüksək qiymət alan Nailənin sevimli fənləri Azərbaycan dili və ingilis dilidir. Dil öyrənməyə böyük marağı olan Nailə hər zaman ingilis dilində kitablar oxuduğunu ingilis dilində olan məlumatları Azərbaycan dilinə tərcümə etdiyini bildirib. Nailə bildirib ki, dil qabiliyyəti və bacarığını təkmilləşdirmək üçün ən əlverişli üsul canlı ünsiyyət, habelə həmin verlişlərə qulaq asmaqdır. Sevimli müəllimləri Səbirə, Günay, Elnurə və Elmira adlı müəllimlərinin adını qeyd edib. Müəllim əməyinə yüksək qiymət verən Nailə bildirib ki, əgər müəllim işini sevirsə o yaxşı müəllim olacaq. Əgər bir müəllim şagirdini bir ata, bir ana kimi sevirsə o əsl müəllimdir. Həqiqi müəllim adını daşıyan insan həmişə tarixin ən çətin dövrlərində dəyanətli və dözümlü olurlar. Nailənin ən böyük uğuru ”Çağdaş” təhsil kursunda topladığı 600 bal olub ki, bu onun yüksək bilik və savadının göstəricisidir. Onun həm də gözəl əl qabiliyyəti vardır ki, maraqlı və qeyri-adi əl işləri ilə həmişə yüksək qiymətləndirilib. Bərdə hazırlıq kursunda əl işlərini yüksək qiymətlənləndiriblər və ”Tərifnamə” veriblər. Nailə asudə vaxtlarını kitab oxumaqla, televizora baxmaqla, rəsm çəkməklə, dostları ilə oyun oynamaqla keçirir. Nailənin ən böyük arzusu orta məktəbi uğurla bitirdikdən sonra ali hüquq ixtisasını bitirib müstəqil vəkil olmaqdır. Uğurlu və peşəkar vəkil olmaq üçün analitik-araşdırma, dərin düşüncə və səlis danışıq qabiliyyətinə malik olmalısan. Nailənin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Behbudov Vüsal Knyaz oğlu 26 iyun 1982-ci ildə Bərdə şəhərində anadan olub . Orta təhsillidir. Hazırda yolların mühafizə xidmətində işləyir.

Anası Behbudova Aynur Şərməddin qızı 1982-ci ildə Bərdədə anadan olub. Ali təhsillidir. Hazırda ibtidai sinif müəllimi işləyir.

Qardaşı Behbudov Alim 2 avqust 2008-ci ildə Bərdə rayonunda anadan olub. 5-ci sinif şagirdidir.

Bacısı Behbudova Vüsalə Vüsal qızı 1 yanvar 2005-ci ildə anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

Jurnal kollektivi addından Nailə balamıza bol şans, müvəffəqiyyətlər arzulayırıq. Qoy öyrəndiyi elm daim onun yolunu işıqlandırsın!



# BEHBUDOVA VÜSALƏ




**"Şagird bir qab deyil ki onu doldurasan o bir məşəldir onu alovlandırmaq lazımdır"**

**(Əbül Fərəc)**

Müasir insan elmin qanadlarında elə uzaqlara uçmuşdur ki, özündən ayrı düşsə də yenilik və texnoloji inkişafdan ayrı düşməmişdir. Bəli bu həqiqətdir ki, biz müasir dövrdə həmin yüksələn inkişaf xətti ilə daha uzaq üfiqlərə yol almışıq. Yaşadığımız 21-ci əsr bizdən ancaq dərin elm, ağıl və yüksək təhsil tələb edir. Çünki elm insanı həyatda hər zaman ön pillələrə çəkən amillərdən biridir. Elm insanı aydınlığa aparan yol, onu müdrik dahi edən vasitədir. Elm insanın dünyagörüşünü artırmaqla yanaşı, həm də onun insani keyfiyyətlərinin zənginləşməsinə şərait yaradır. Bir gün gələcək elm xəyalı qabaqlayacaq deyimi sanki 21-ci əsri ehtiva edirmiş . Müasir dünyada elm, təhsil o qədər güclü inkişaf etmiş ki, artıq yenilik və kəşflər nəticəsində əsrimiz real həyat mənzərəsinə çevrilib.

Elm insan təfəkkürünün inkişafı haqqında obyektiv sistemli biliklərin əldə edilməsinə və onların geniş şəkildə yayılmasına yönəlmiş fəaliyyətdir. Bu fəaliyyətin də başlıca əsasını elmi faktların toplanması, onların daim və müntəzəm olaraq yenilənməsi və başqalarına ötürülməsi daxildir. Elmi nəticələr insanlar və nəsillər tərəfindən ötürüləndə daha faydalı olur. Elmin mahiyyətini dərk edən və bu yolda irəliləməyə doğru çalışan çagirdlərimizdən biri də Behbudova Vüsalə Vüsal qızıdır.

Behbudova Vüsalə Vüsal qızı 1 yanvar 2005-ci ildə Bərdə şəhərində anadan olub. 2011-ci ildə Bərdə şəhər 8 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 8"a" sinif şagirdidir. Vüsalə oxuduğu 8 il müddətində əlaçı şagird olmuş daim müəllimlərinin rəğbətini qazanmışdır. Bütün tədris fənlərinə məsuliyyətlə və diqqətlə yanaşsa da Vüsalənin ən çox maraq göstərdiyi fənn riyaziyyatdır. Ən çox sevdiyi və hörmət bəslədiyi müəllimi isə Nüranə müəllimdir. Sinfin əlaçı şagirdi olan qızımız bildirib ki, ən böyük uğuru "Çağdaş" kursundan əldə etdiyim yüksək nəticə olub. Keçirilən sınaq imtahanlarında həmişə 500-dən çox bal toplamışam. Yüksək nəticə topladığıma görə məktəb rəhbərliyi tərəfindən "Fəxri Fərman"la təltif olunub. Gələcəkdə bundan da çox bal toplamağı qarşısına məqsəd qoyduğunu və ümid edirəm ki, buna da nail olacam. Boş vaxtlarını da səmərəli keçirərək ingilis dili və riyaziyyatdan biliklərini artırmaq üçün fərdi hazırlıq kurslara gedir. Gələcək yolunu da indidən seçən Vüsalə müəllim olmaq istəyir. Müəllimlik peşəsinə yüksək qiymət verən Vüsalə bu peşənin çox yaradıcı şərəfli və məsuliyyətli bir peşə olduğunu bildirib. Müəllim gələcək nəsillərə öz töhfələrini vermək üçün hər zaman əziyyət çəkir, hər zaman yeni nəsillərin ilkin bilik və savadlanmasında müstəsna xidmətə malik peşə adamlarıdır. Cəmiyyətin gələcək nəsillərinin inkişafı məhz müəllimdən asılıdır. Bunu düşünən Vüsalə də bu şərəfli işi layiqincə yerinə yetirməyi qarşısına əsas məqsəd qoyub. Hər bir valideyn övladının gələcəyinin parlaq olmasını istəyir. Vüsalənin də valideynləri onun gələcəyinin parlaq, taleyinin uğurlu olması üçün əlindən gələni əsirgəmir, onun üçün çalışıb zəhmət çəkirlər. Vüsalənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Behbudov Vüsal Knyaz oğlu 26 iyun 1982-ci ildə Bərdə şəhərində anadan olub.Orta təhsillidir. Hal-hazırda yolların mühafizə xidmətində işləyir.

Anası Behbudova Aynur Şərməddin qızı 1982-ci ildə Bərdədə anadan olub, evdar xanımdır.

Qardaşı Behbudov Alim Vüsal oğlu 2 avqust 2008-ci ildə Bərdə şəhərində anadan olub, 5-ci sinif şagirdidir.

Bacısı Behbudova Nailə Vüsal qızı 17 mart 2006-cı ildə Bərdə şəhərində anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

" Çağdaş Təhsil" jurnal kollektivi adından Vüsalə balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına çatmağını diləyirik. Ömür yolu müəllim və doğmalarının fəxr edəcəyi qədər şərəfli və uğurlu olsun!



# Fərzəliyeva Kifayət










**"O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir, ona ehtiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhməkeşdir, ona kömək edin. O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun"**

***(N.Tusi)***

Ümumi orta təhsilin məqsədi təhsil alanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya- kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.

Elm inkişaf etdikcə xalq,mədəniyyət də inkişaf edir, cəmiyyət normal formalaşır. Növbəti jurnal yazısında istedadlı,savadlı,gələcəyinin parlaq olması üçün çalışan Kifayət balamızdan danışacağıq. Fərzəliyeva Kifayət Şakir qızı 2004-cü ildə iyun ayının 12-də Sumqayıt şəhərində dünyaya göz açmışdır. 2011-ci il sentyabr ayının 15-də Kifayət balamız Bərdə rayon Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbin 1-ci sinifinə qədəm qoymuşdur. Məktəbin istedadlı və qabaqcıl şagirdi olan Kifayət hazırda sözügedən məktəbin 8 b sinfində təhsilini davam etdirir. Məktəbə başladığı ilk gündən Kifayət dərsə hər zaman hazırlıqlı olmasına, nümunəvi davranışa görə məktəb rəhbərliyi tərəfindən müsbət qiymətləndirilmişdir. Bütün dərslərində çalışqan şagird olan Kifayətdən ən sevdiyi fənləri soruşarkən sorğumuza təsviri incəsənət, fizika və biologiya dərslərinin adını çəkmiş,onları həvəslə hazırladığını vurğulayır. Kifayət məhz bu dərsləri ona sevdirən müəllimlərdən Yeganə,Aysel və Günay müəllimlərinin adlarını çəkir,onların çox savadlı və zəhmətkeş olduqlarını qeyd edir. Anası Aybəniz xanımla həmsöhbət olarkən məlum oldu ki, bu balanın maraqlı rəsm çəkmək qabiliyyəti var. Kifayətin çəkdiyi rəsmlər Bərdə şəhərində təşkil olunan rəsm yarışmasında sərgilənmiş və böyük rəğbətlə qarşılanmışdır. Bu qabiliyyətini püxtələşdirmək üçün Kifayət asudə vaxtlarını maraqlı və yaradıcı rəsmlər çəkməklə əyləncəli hala gətirir.

İstedadlı balamızın böyüyüb boya-başa çatması üçün anası Aybəniz xanımın böyük əməyi keçmişdir. Aybəniz Allahverdiyeva Rəcəb qızı 44 yaşındadır. O, musiqi müəllimliyi üzrə orta ixtisas təhsilli olsa da hazırda evdar xanımdır. O, ömrünü uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmaq üçün həsr edib. Atası Fərzəliyev Şakir 38 yaşındadır,o, əvvəl hərbiçi olub. Kifayətin bacısı Səkinə isə 17 yaşındadır,ailəlidir.

Jurnalımızın heyəti adından biz də Kifayət balamıza böyük həyat və sənət uğurları,can sağlığı və xoş günlər arzulayırıq. Qoy öyrəndiyi hər bilik onun ömür yoluna yaşıl işıq yandırsın. Arzuları çin ,dilәkləri gerçək olsun. Ona baxıb müəllim və valideynləri daim qürur hissi keçirsin!



# Kərimova Ləman






**"Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən.**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan."**
***(Nizami Gəncəvi)***

Elm bütün dünya xalqlarının birgə səyi nəticəsində yaradılan vahid bütöv prosesdir. İngilislərin ayrı, ərəblərin ayrı, rusların ayrı elmi yoxdur. Eləcə də, müstəqil Azərbaycan elmi yoxdur. Elm hamı üçün ümumidir. Lakin onun yaradılmasında, inkişafında heç də hamı eyni rol oynamamışdır. Müxtəlif dövrlərdə öz inkişaf səviyyəsindən asılı olaraq bu və ya digər xalqın, ölkənin, regionun elmə verdiyi pay müxtəlif olmuşdur. Həm də böyük elm məbədində heç kimin xidməti unudulmamışdır,daim yüksək səviyyədə dəyərləndirilmişdir.

Jurnalımızın bu sayında istedadlı və çalışqan şagirdlərdən olan Kərimova Ləman Kamal qızı haqqında qısa məlumat verəcəyik. Kərimova Ləman Kamal qızı 2009-cu ildə iyun ayının 14-də Saatlı rayon Sarıcalar kəndində anadan olmuşdur. O,2014-cü ildə Sabirabad rayon H.Z.Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinifində təhil almağa başlamışdır. Hazırda Ləman həmin məktəbin 5-ci sinifində təhsilini uğurla davam etdirir. Məktəbə başladığı ilk gündən məsuliyyətliliyi və diqqətliliyi ilə müəllimlərinin sevgisini və hörmətini qazanmışdır. Bütün dərslərinə məsuliyyətlə yanaşan,hər zaman hazırlıqlı olan Ləmanın ən sevdiyi fənlər xarici dil və riyaziyyatdır. Onu oxumağa həvəsləndirən,qayğı ilə yanaşan müəllimləri isə Elnarə müəllim,Ələsgər müəllim və Məlahət müəllimdir. O,qeyd edir ki,bütün müəllimləri əziyyət çəkir,onların öyrənməsi üçün əllərindən gələni əsirgəmirlər. Şagirdlərin təhsili o zaman uğurlu olur ki,müəllimlər, va -lideynlər uşaqların təhsili ilə paralel şəkildə məşğul olsun. Yəni valideynlər də daim övladlarının oxumasında, təhsil almasında maraqlı olub onlara daim bu istiqamətdə öz yardım və köməkliklərini əsirgəməsinlər. Ləmanın ən böyük arzusu müəllim olmaqdır. Ancaq o başa düşür ki,bütün bunlar ani olaraq baş vermir,insanların uğurlarının arxasında müəllimlərimizin uzun illər çəkdikləri zəhmətlər dayanır. Elə buna görə də cəmiyyətdə müəllimlik çox şərəfli,müqəddəs peşə hesab olunur. Bütün bunları dərk edən Ləman bu şərəfli peşənin məsuliyyətini və səlahiyyətini daşımaq, şagirdlərin çox sevdiyi müəllimlərdən biri olmaq istəyir. Bu məqsədinə çatmaq üçün Ləman balamız boş vaxtlarında da usanmadan dərslərini təkrarlayır, nağıl kitabları oxuyur.

Ləmanın ailəsi 4 nəfərdən ibarətdir. Atası Kamal Kərimov 45 yaşındadır,hal-hazırda işsizdir. Anası Südabə Kərimova 43 yaşındadır. Evdar xanımdır. O, Ləmanın və qardaşı Əlinin dərsləri ilə məşğul olur. Ləmanın qardaşı Əli 15 yaşındadır, o Ləmanla eyni məktəbdə 8-ci sinifdə yaxşı qiymətlərlə oxuyur.

Biz də öz adımızdan Ləmana uğur və müvəffəqiyyətlər diləyir və arzu edirik ki, gələcəkdə seçdiyi müəllimlik peşəsinə layiqli, vətəninə,millətinə fayda verən mütəxəssis olsun. Daim ailəsinin başını uca tutsun!



# Fərəcov Fərid







**Böyüyəndə mən bir əsgər olaram**
**Ana Vətən tabehində duraram**
**Düşmənini qana bularam**
**Tez ol qoynunda böyüt məni**
**Silah tutub müdafiə edim səni!**

Vətəpərvər olmaq torpağını sevmək, ölkənə dəyər vermək, bayrağını hər şeydən uca tutmaqdır. Vətənpərvər olmaq eyni zamanda həm vətəninə hörmət etmək, həm ona faydalı vətəndaş olaraq dəstək olmaq, həm də yeri gələndə onu müdafiə etməyi bacarmaqdır. Ölkənin tarixini bilmək, təbliğ etmək dövlətinin mənafeyini müdafiyə etməyi bacarmaq deməkdir. Vətənpər olmaq bildiklərini həmvətənlərinlə bölüşmək, bacarıqlı həmvətənlilərinin fərdi inkişafı üçün əlindən gələni əsirgəməməkdir həm də. Bu yazımızın da qəhrəmanı gələcəyin hərbiçisi olmaq istəyən Fərəcov Fərid Mütəllim oğludur ki, o, məktəbli biri olsa belə yaşından daha artıq ağıllı və cəsarətlidir.

Fərəcov Fərid Mütəllim oğlu 17 aprel 2005-ci ildə Sabirabad rayonunun Şıxsalahlı kəndində anadan olub. 2012-ci ildə Sabirabad rayon Şıxsalahlı kənd tam orta məktəbinə daxil olub və hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Sevimli fənləri Azərbaycan dili və riyaziyyat , sevimli müəllimi isə Dünya-xanım müəllimdir. O, dərslərini yaxşı oxuyan və uğurlu şagirdlərdən biridir, yəni əlaçıdır. Fəridlə apardığımız müsahibədən aydın oldu ki, onun ilk uğuru bu il olub. Rayon üzrə keçirilən 3 bilik yarışmasında 2 dəfə birinci, bir dəfə isə ikinci yeri tutmaqla mükafatlandırılıb. Olduqca vətənpərvər və cəsarətli olan Fəridin ən böyük arzusu güclü hərbiçi olmaqdır. O, bildirib ki, vətəni qorumaq dövlət və milləti qorumaq, onu sevmək anlamındadır. Vətənə bağlılıq, milli-mədəni dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə bağlılıqdır. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, vətənin suyunu, havasını sevmək deməkdir. Asudə vaxtlarında fiziki yorğunluğunu aradan qaldırmaq üçün aktiv idmanla məşğul olur, dərslərini təkrarlayır. Evin tək övladı olan Fəridin ailəsi özü ilə birgə 3 nəfərdən ibarətdir.

Atası Fərəcov Mütəllim İsaq oğlu 25 mart 1966-cı ildə Sabirabad rayonunda anadan olub, fərdi təsərrüfatla məşğul olur. O, oğlunun gələcəyinin parlaq olması üçün bir ata kimi əlindən gələni zəhmət və əziyyəti çəkir.

Anası Fərəcova Aybəniz Zakir qızı 14 fevral 1970-cı ildə anadan olub, evdar xanımdır. Bir valideyn kimi onlar Fəridin gələcəyin mərd, qoçaq oğlanlarından olacağına heç bir şübhələri yoxdur, əksinə ona inanır və arzularına görə dəstək olurlar.

Redaksiyamız adından Fərid balamıza gələcək həyatında uğurlar arzulayırıq. Ümid edirik ki, gələcəkdə arzuladığı peşəyə sahib olar və vətənimizin, xalqımızın hər zaman başını uca edər. Üçrəngli bayrağımızı işğal olunmuş torpaqlarda yüksəltmək onun kimi igid oğula qismət olar!